


YENİ AZƏRBAYCAN

11 sentyabr 2025-ci il, cümə axşamı
№ 162 (6989)
Qiymәti 60 qәpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.


Milli azadlıqdan şirin nemət yoxdur!

# Prezident Azərbaycan Yazıçılar Birliyinin Səməd Vurğun adına Yaradıcılıq Evinin açılışında...



Bax səh. 2

# Vaşinqton-Bakı təşəbbüskarlığının əzmkar nümunəsi

Bax səh. 3

# Qlobal Cənubun gur səsi



Bax səh. 2

# Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Çin Xalq Respublikasında səfərdədir

Bax səh. 4

## AQEM mühüm beynəlxalq platformadır

Bax səh. 3

## Uçot dərəcəsi dəyişmədi

Bax səh. 4

## V Respublikanın və Makronun sonu: 67 il sonra tarix təkrarlanır...

Bax səh. 5

## Himalay ölkəsini kütləvi iğtişaşlar bürüyüb

Bax səh. 7



## Rusiya PUA-ları Polşa səmasında...

Bax səh. 6



## Terrorun 11 sentyabr kölgəsi: Dünya necə xilas olacaq...?

Bax səh. 7



## İsraildən HƏMAS-a növbəti zərbə

Bax səh. 6

# Prezident Azərbaycan Yazıçılar Birliyinin Səməd Vurğun adına Yaradıcılıq Evinin açılışında...






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda Azərbaycan Yazıçılar Birliyinin Səməd Vurğun adına Yaradıcılıq Evinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına Yaradıcılıq Evində yaradılmış şərait barədə məlumat verdi.

Bildirildi ki, Xəzər rayonunun Şüvəlan qəsəbəsində yerləşən kompleksin ərazisi 3 hektara yaxındır. Burada "suite" və "standart" tipli olmaqla, ümumilikdə, 43 otaq var. Kompleksdəki 174 yerlik konfrans zalında müxtəlif tədbirlərin, o cümlədən yaradıcılıq gecələrinin, yazıçılarla görüşlərin və digər mədəni tədbirlərin keçirilməsi mümkün olacaq. Burada kinoteatr, kitabxana, qapalı, həmçinin açıq havada restoranlar, kafe, fitnes zonası da fəaliyyət göstərəcək. Eyni zamanda, futbol, tennis və uşaq oyun meydançaları da istirahət edənlərin ixtiyarına veriləcək.

Qeyd edək ki, kompleksin bu cür müasir səviyyədə inşası ölkəmizdə yaradıcı insanların fəaliyyətinə göstərilən dövlət dəstəyinin növbəti təzahürü olmaqla, ilk növbədə, onların istirahətinin təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Azərbaycan dövlətinin həyata keçirdiyi siyasət nəticəsində yaradılmış şərait mədəniyyət və incəsənət sahəsində çalışanların fəaliyyətinin daha da canlanmasına səbəb olmaqla yanaşı, bu sahənin inkişafına mühüm töhfə verir. Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində yaradıcı şəxslərin fəaliyyətinin stimullaşdırılması, onların əməyinə yüksək qiymətin verilməsi, sosial təminatlarının, mənzil-məişət şəraitlərinin daha da yaxşılaşdırılması istiqamətində ardıcıl işlər görülür. Bundan başqa, istirahət və yaradıcılıq imkanlarının genişləndirilməsi məqsədilə yaradıcılıq ittifaqlarının, yaradıcılıq evlərinin və sanatoriyaların fəaliyyəti də dövlət səviyyəsində dəstəklənir.

# Qlobal Cənubun gur səsi

**İlham Əliyev: Ölkəmizin suverenliyini və ərazi bütövlüyünü bərpa etməsindən sonra regionda təşviq etdiyimiz sülh gündəliyi xarici siyasətimiz üçün yeni üfüqlər açır və onun daha qlobal xarakter daşıması baxımından mühüm amil rolunu oynayır**



Nümunəvi inkişaf modeli ilə fərqlənən, multikultural mühitə malik olan, qlobal həmrəyliyin möhkəmlənməsinə davamlı töhfələr verən Azərbaycanın beynəlxalq tədbirlərə ev sahibliyi etməsi artıq ənənə halını alıb. Ölkəmiz dünyada dialoq məkanı kimi qəbul olunur.

Respublikamızın ev sahibliyi etdiyi növbəti beynəlxalq tədbir Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Beyin Mərkəzləri Forumunun 13-cü sessiyasıdır. Prezident İlham Əliyev tədbir iştirakçılarına ünvanladığı məktubunda ilk dəfə olaraq Çindən kənarda keçirilən bu forumun məhz Azərbaycanda baş tutmasının məmnunluq doğurduğunu xüsusi vurğulayıb.

## Azərbaycan ilə Çin arasında sıx tərəfdaşlıq və dostluq münasibətlərinin bariz nümunələri

Müstəqil Azərbaycanın milli maraqlar üzərində qurulan siyasəti çoxvektorludur. Ardıcıl və məqsədyönlü siyasət nəticəcində respublikamız əksər region ölkələri ilə, Avropa İttifaqına (Aİ) daxil olan dövlətlərlə, eləcə də İslam dünyası ilə qarşılıqlı maraqlara əsaslanan əlaqələr qurmağa nail olub. Bu kontekstdə Azərbaycanla Asiya nəhəngi Çin arasında strateji tərəfdaşlıq münasibətlərinin formalaşması da xüsusi diqqət çəkir. "Bu il ərzində Çinə həyata keçirilmiş səmərəli dövlət və işgüzar səfərlərim, bir çox sənədlərin, xüsusilə də strateji tərəfdaşlıq barədə iki sənədin imzalanması, qarşılıqlı viza rejiminin ləğvi Azərbaycan ilə Çin arasında sıx tərəfdaşlıq və dostluq münasibətlərinin bariz nümunələridir", - deyə Prezident İlham Əliyev tədbir iştirakçılarına ünvanladığı məktubunda qeyd edib.

Bu gün həm Azərbaycan, həm də Çin əlaqələrin daha da dərinləşməsinə güclü siyasi iradə göstərirlər. İki ölkə arasında siyasi dialoq yüksək dinamikası ilə fərqlənir. Azərbaycan Prezidenti İlham Əliyev cari ilin aprel ayında dost ölkədə dövlət səfərində olub. Bu, dövlətimizin başçısının Çinə üçüncü dövlət səfəridir. Bu günlərdə isə Prezident İlham Əliyev Çində işgüzar səfərdə olub. Səfər çərçivəsində dövlətimizin başçısı Çinin Tiencin şəhərində "ŞƏT plyus" formatında keçirilən Zirvə görüşünə qatılıb, həmçinin birinci xanım Mehriban Əliyeva ilə birlikdə Pekində yapon işğalına qarşı Çin xalq müqaviməti və İkinci Dünya müharibəsində qazanılmış Qələbənin 80-ci ildönümünə həsr olunmuş paradı izləyib.

Qarşılıqı münasibətlərin yüksələn xətlə ikişafına liderlərin bir-birinə böyük rəğbət və hörmət bəsləməsi xüsusi rol oynayır. Yeri gəlmişkən, Prezident İlham Əliyevin bəhs olunan son işğüzar səfəri çərçivəsində Tiencin şəhərində Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşündə dost ölkənin lideri Onu "mənim əziz dostum" deyərək salamlayıb. Prezident İlham Əliyev isə görüşlərin birində Sədr Si Cinpinin Onu Çinin yaxın dostu adlandırdığını bir növ mükafat kimi qəbul ediyini bildirib.

İki ökə arasında 2024-cu il iyulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" qəbul olunub. Dövlətimizin başçısının cari ilin aprel ayında Çinə sonuncu dövlət səfəri çərçivəsində isə hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələrinin Qurulması Haqqında Birgə Bəyanat və bir çox sahəni əhatə edən 20-dən artıq sənəd imzalanıb. Bu sənədlərdə yer alan müddəalardan açıq-aydın görünür ki, ikitərəfli əlaqələr kifayət qədər geniş gündəliyə malikdir.



## Ölkəmiz daim Qlobal Cənubun yanındadır

Bu gün yeni dünya nizamının formalaşmasında Qlobal Cənubla Qlobal Qərb arasında kəskin ziddiyyətlər özünü açıq şəkildə büruzə verir. Çinin iqtisadi qüdrətinin artması fonunda Asiya qitəsi önə çıxsa da, bütövlükdə önəmli qərarların qəbul edilməsində Qlobal Cənubun mövqeyi az nəzərə alınır və yaxud heç alınmır. Bu, ədalətsizlikdir. Dünya bizim ümumi evimizdir və burada bərabər imkanlar və hüquqlar təmin olunmalıdır. BMT TŞ-nin qlobal məsələlərə bir sıra hallarda selektiv yanaşması və yaxud ayrı-ayrı güc mərkəzlərinə təsir imkanlarının məhdud olması ortadadır. Bu səbəbdən də beynəlxalq hüquq işləmir, güc amili önə çıxır. Bunu Azərbaycan da Ermənistanın ölkəmizə qarşı işğalçılıq siyasəti apardığı üç onillik ərzində öz üzərində hiss edib. BMT TŞ Ermənistan silahlı qüvvələrinin ərazilərimizdən qeyd-şərtsiz çıxarılmasını özündə ehtiva edən dörd qətnamə qəbul etsə də, onlar yerinə yetirilmədi. Azərbaycan tarixi ədaləti və beynəlxalq hüququ öz gücünə təmin etmək məcburiyyətində qaldı. Niyə belə olmalıdır? Nə üçün TŞ-nin qərarları bir sıra hallarda çox operativ şəkildə yerinə yetirilir, digər hallarda isə toz basmış arxiv sənədlərinə çevrilir? Bunun ən mühüm səbəblərindən biri TŞ-nin paritet əsaslarla formalaşmamasıdır. Azərbaycan o mövqedən çıxış edir ki, dünyanın taleyini sadəcə beş ölkə təmin edə bilməz. BMT-də islahatlar aparılmalı, TŞ genişləndirlməli və burada Qlobal Cənub da təmsil olunmalıdır. Prezident İlham Əliyev vurğulayıb ki, Qlobal Cənub ölkələri yeni ədalətli dünya nizamının formalaşdırılmasında yaxından iştirak etməli və bu işə öz töhfələrini verməlidirlər.

Öz növbəsində Azərbaycan son illərdə apardığı ardıcıl siyasətlə, irəli sürdüyü təşəbbüslərlə Qlobal Cənubun gur səsinə çevrilib. Respublikamız 2019-2023-cü illərdə Qlobal Cənuba aid ölkələri birləşdirən böyük bir platformaya - Qoşulmama Hərəkatına (QH) uğurlu sədrlik həyata keçirib.Sədrliyi dönəmində Azərbaycan Qlobal Cənub ölkələrinin üzləşdiyi ədalətsizliyi beynəlxalq gündəliyə çıxarmağa nail olub.

Azərbaycan, həmçinin azadlıq mübarizəsinə qalxan xalqlara mənəvi-siyasi dəstək verməklə dünyada müstəmləkəçilik əleyhinə mübarizənin önündə gedir. Bakı Təşəbbüs Qrupu bu mübarizədə xüsusi fəallıq göstərir.

## COP29-un gözəl mirasları

Bütün dünyanın təsirləndiyi iqlim dəyişikliyi getdikcə daha ağır fəsadlarla müşayiət olunur. Təbii ki, iqlim dəyişmələrindən bütün dünya ölkələri təsirlənirlər. Ancaq Qlobal Cənuba aid kiçik ada dövlətləri üçün vəziyyət daha ağırdır. Okeanda dörd bir tərəfdən su ilə əhatə olunan bu dövlətlər həyatla ölüm arasında mübarizə aparırlar. Azərbaycan bu məsələdə də Qlobal Cənubun yanındadır. "Eyni zamanda, COP29-un sədri qismində Qlobal Cənub ölkələrinin iqlim gündəliyi ilə bağlı baxışlarının təşviqi, ən az inkişaf etmiş ölkələrin, xüsusilə də kiçik ada dövlətlərinin ehtiyaclarının təmin edilməsi prioritetlərimiz arasında yer almışdır. Ötən ilin noyabr ayında Bakıda keçirilmiş COP29-un uğurlu nəticələri "Bakı sıçrayışı" kimi tarixə düşmüşdür", - deyə Prezident İlham Əliyev bildirib.

COP29-un digər bir gözəl mirası isə Qobal Cənubu təmsil edən QHT platformasının bu il Bakıda təsis edilməsidir. Xatırladaq ki, Azərbaycan Milli QHT Forumu 2024-cü il noyabrın 15-də COP29 çərçivəsində keçirilən beynəlxalq konfransda Qlobal Cənub QHT Platformasının yaradılmasının vaxtının çatdığını elan edib. Cari il aprelin 28-də isə116 ölkədən QHT-lərin iştirakı ilə Bakıda Qlobal Cənub QHT Platforması təsis edilib.

## Qalib dövlətin təşviq etdiyi sülh gündəliyi

Qalib Azərbaycan onilliklər boyunca davam edən müharibədən sonra regonda sülhün və təhlükəsizliyin təmin olunmasının tərəfdarıdır. Təsadüfi deyildir ki, 44 günlük müharibə başa çatdıqdan sonra respublikamız ilk olaraq sülh təşəbbüsü ilə çıxış edib və ötən beş ildə öz mövqeyinə sadiq qalmaqla tənzimləmə prosesini irəli aparıb.

Hazırda Azərbaycan və Ermənistan sülhə heç vaxt olmadıqları qədər yaxındırlar. Cari il avqustun 8-də Vaşinqtonda Azərbaycanın, ABŞ-ın və Ermənistanın liderlərinin iştirakı ilə hər iki ölkənin xarici işər nazirləri sülh sazişini paraflayıblar. Eyni zamanda, Prezident İlham Əliyevin və Baş nazir Nikol Paşinyanın verdikləri birgə Bəyanatda Zəngəzur dəhlizinin (Tramp marşrutunun) yaradılması, ölkəmizin əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz keçidin təmin olunması razılaşdırılıb. Həmçinin Vaşinqton razılaşmalarına uyğun olaraq artıq ATƏT-in Minsk qrupu da tarixin arxivinə qovuşub . Bütün bunlar Azərbaycanın sülh gündəliyinin bütün dünyada qəbul edildiyini əyani şəkildə təsdiqləyir. "Ölkəmizin suverenliyini və ərazi bütövlüyünü bərpa etməsindən sonra regionda təşviq etdiyimiz sülh gündəliyi xarici siyasətimiz üçün yeni üfüqlər açır və onun daha qlobal xarakter daşıması baxımından mühüm amil rolunu oynayır. Keçən ay Azərbaycanla Ermənistan arasında sülh sazişinin paraflanması həm bölgə, həm də daha geniş coğrafiya üçün əlverişli imkanlar yaradır", - deyə Prezident İlham Əliyev bildirib.

*Mübariz ABDULLAYEV*

# Heydər Əliyev Fondu Vatikanın "Bambino Gesu" xəstəxanası ilə anlaşma memorandumu imzalayıb

Heydər Əliyev Fondu, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Müqəddəs Taxt-Tacın "Bambino Gesu" pediatrik xəstəxanası arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.

AZƏRTAC xəbər verir ki, imzalanma Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərovun Müqəddəs Taxt-Taca səfəri çərçivəsində baş tutub. Sənədi Prezidentin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov və "Bambino Gesu" xəstəxanasının rəhbəri Tiziano Onesti imzalayıblar.

Anlaşma memorandumu çərçivəsində Avropanın ən böyük pediatrik tibb müəssisəsi ilə təlim-tədris proqramlarının həyata keçirilməsi, molekulyar genetika və fərdi tibbi yanaşma sahəsində birgə tədqiqatların aparılması, eləcə də Azərbaycanda müalicəsi mümkün olmayan mürəkkəb klinik halların "Bambino Gesu" ilə birgə diaqnostikası və müalicəsi nəzərdə tutulur. Əməkdaşlığın əsas istiqamətlərini Azərbaycanda pediatriya sahəsində çalışan tibb işçilərinin peşəkar bilik və bacarıqlarının artırılması, molekulyar genetika, klinik diaqnostika və nadir xəstəliklər sahəsində birgə elmi və klinik fəaliyyətlərin təşkili, habelə genom diaqnostikası və fərdi tibbi yanaşmaların ölkəmizdə tətbiqinin genişləndirilməsi təşkil edir.



1869-cu ildə əsası qoyulan "Bambino Gesu" xəstəxanası hazırda uşaq xəstəlikləri üzrə Avropanın ən böyük xəstəxanası və tədqiqat mərkəzi, eyni zamanda, bütün növ uşaq orqan, hüceyrə və toxuma transplantasiyasını yerinə yetirmək üçün səlahiyyətli Avropa mərkəzlərindən biridir. Xəstəxana, həmçinin 40-dan çox ölkənin iştirak etdiyi nadir xəstəliklər üçün ən böyük qlobal məlumat bazası olan "Orphanet"in İtaliyadakı qərargahıdır.

# Vaşinqton-Bakı təşəbbüskarlığının əzmkar nümunəsi

## ABŞ Orta Dəhliz və regional kommunikasiya quruculuğunda fəal yer alacaq

İqtisadiyyat naziri Mikayıl Cabbarov ABŞ-ın Orta Dəhliz üzrə Sertifikatlaşdırılmış Ticarət Missiyasının nümayəndələri ilə görüşüb. Görüşdə cari ilin avqustun 8-də Vaşinqtonda Azərbaycan, ABŞ Prezidentlərinin və Ermənistanın baş nazirinin iştirakı ilə imzalanmış sənədlərin Amerika və ölkəmiz üçün yeni perspektivlər açacağı, Naxçıvan Muxtar Respublikasına maneəsiz gediş-gəlişi təmin edəcək layihənin strateji əhəmiyyətindən bəhs edilib.

Azərbaycanın mühüm nəqliyyat-tranzit mövqeyi, Avropa və Asiyanı birləşdirən Orta Dəhliz vasitəsilə ticarət axınlarını artırmaq məqsədilə həyata keçirdiyi təşəbbüslər və infrastruktur layihələrinin əhəmiyyətinə toxunulub. ABŞ tərəfi ölkələrimiz arasında strateji tərəfdaşlığın genişləndirilməsinin Orta Dəhliz coğrafiyasında ticarət və enerji marşrutlarının şaxələndirilməsinə və region ölkələrinin rifahına xidmət edəcəyinə əminliyini ifadə edib. Bütövlükdə, bu dəhlizin genişləndirilməsi istiqamətdə atılan qətiyyətli addımlar Mərkəzi Asiya-Qafqaz və Avropa regionu ölkələri ilə strateji əlaqələrin möhkəmləndirilməsinə dərin töhfələr verəcək.

### “Tramp Marşrutu” rifah körpüsünə çevriləcək

Hazırda Azərbaycan Orta Dəhlizin ən etibarlı nöqtələrindən birinə çevrilir, Şərq-Qərb istiqamətində daşınmaların tranzit qovşağı kimi beynəlxalq daşınmaların axıcılığını təmin edir. Beynəlxalq ticarət icması da Azərbaycanın bu geostrateji və coğrafi mövqeyinin əhəmiyyətliliyini nəzərə alaraq Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) yaradılmasında xüsusi təşəbbüskarlıq göstərərək dəstək verir. Bundan başqa, Azərbaycan sərhəd-keçid sistemində ən müasir texnologiyalar tətbiq edərək gömrük rejimini asanlaşdırır, qlobal ticarət tərəfdaşları ilə gömrük dərəcələrinin aşağı salınması istiqamətində addımlar atır.

Azərbaycanın əhəmiyyətli geoiqtisadi və coğrafi mövqeyi TransXəzər-Qərb nəqliyyat habını formalaşdırır və bu logistika quruculuğu Vaşinqton tərəfindən yüksək dəyərləndirilir. Orta Dəhlizin növbəti həlqəsinə çevrilməkdə olan Zəngəzur qovşağına Amerikanın xüsusi marağı və “Tramp Marşrutu”nun (TRIPP) ərsəyə gəlməsi də bu strateji baxışa söykənir. Bu kimi təşəbbüslərin artması, o cümlədən ABŞ-ın Orta Dəhliz üzrə Sertifikatlaşdırılmış Ticarət Missiyasının nümayəndələri ilə görüşün keçirilməsi Orta Dəhliz və müasir kommunikasiya quruculuğunda Vaşinqton-Bakı təşəbbüskarlığının əzmkar nümunəsi kimi dəyərləndirilə bilər.



### “Yaşıl enerji”nin Şərq-Qərb tranziti

ABŞ hökuməti Azərbaycanla yeni iqtisadi hədəf prioritetlərinə uyğun olaraq, nəqliyyat marşrutlarında öz siyasi dəstəyini gücləndirməklə yanaşı, özəl sektordakı biznes icmalarının ölkəmizdə fəaliyyətini təşviq etmək, eləcə də ticarət, enerji, infrastruktur və logistika sahələrində əməkdaşlığı artırmaqda israrlıdır. Amerika missiyasının nümayəndələri ilə görüşdə enerjinin yeni gündəliyi olan “yaşıl hidrogen” və bərpaolunan enerji mənbələrinin tədarükü və nəqli proseslərinə fəal əməkdaşlığa da diqqət çəkilib. Azərbaycanın “yaşıl enerji” üzrə nəql marşrutu da Şərq-Qərb xətti üzərində qurulub ki, bu da Vaşinqtonun dəstəklədiyi enerji konsepsiyasına uyğundur. Bütün bunlar onu göstərir ki, ABŞ-ın “yaşıl enerji” proqramlarında Azərbaycanla birgə əməkdaşlığı üçün fürsət və mühit də formalaşıb.

### “ExxonMobil” sərmayə liderliyində yer alacaq

ABŞ enerji diplomatiyasının yeni gündəliyində iri dövlət şirkətlərinin aparıcı investor kimi sərmayə liderliyində təmsilçiliyi nəzərdə tutulub. Bu prosesdə SOCAR və “ExxonMobil” əsas aktor kimi yer alacaq. Tərəflər arasında əldə olunmuş anlaşmaya əsasən, mövcud olan müsbət əlaqələrin möhkəmləndirilməsi, Azərbaycanda qeyri-ənənəvi və ənənəvi neft və qaz imkanlarının dəyərləndirilməsi və bərpaolunan enerji istiqamətində potensial əməkdaşlıqlar səfərbər ediləcək. “ExxonMobil” enerji sektorunda müasir qazma texnologiyalarının tətbiqi, habelə resursların diversifikasiyasında ölkəmizə mühüm faydalar verməyi planlaşdırır. Azərbaycanda böyük neft yatağının kəşfi ehtimalı yüksəkdir və müasir texnologiyalar sahəsində böyük təcrübəyə malik “ExxonMobil” şirkəti ilə yeni əməkdaşlıq bu kəşfi tezləşdirə bilər. karbohidrogen tədarüklərinə beynəlxalq maliyyə təşkilatı olan “EXIM Bank”ın qoşulması isə nəql infrastrukturunun şaxələnməsində potensial maliyyəni təmin edəcək.

Mühüm anlaşmalara əsasən, ABŞ-ın biznes və səhmdar qurumlarının da Azərbaycanın investisiya mühitindən faydalanması ilə bağlı da praktiki addımlar atılmaqdadır.

***ELBRUS CƏFƏRLİ***

# AQEM mühüm beynəlxalq platformadır

Azərbaycan nüfuzlu beynəlxalq tədbirlərin keçirildiyi məkandır. Bakıda Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) və Şanxay Beynəlxalq Araşdırmalar İnstitutunun (SIIS) birgə təşkilatçılığı ilə “İnkişaf və təhlükəsizliyin rezonansı: AQEM-in institusional transformasiyasında regional əməkdaşlıq və idarəetmə” adlı AQEM-in Beyin Mərkəzləri Forumunun 13-cü sessiyasının keçirilməsi də bunun göstəricisidir.

### Azərbaycanın sədrliyi ilə keçirilən ilk forum...

Forumun açılış mərasimində çıxış edən Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Baş katibi Kayrat Sarıbay qeyd edib ki, builki toplantı xüsusi önəm daşıyır, çünki Azərbaycanın sədrliyi ilə keçirilən ilk beyin mərkəzləri forumudur. Onun sözlərinə görə, AQEM səmərəliliyin artırılmasını əsas prioritet hesab edir. Bu gün Asiya elm və texnologiya sahəsində yüksələn nüfuzu ilə qlobal inkişafın mühüm mərkəzinə çevrilir. Dövlətlərin artan qarşılıqlı asılılığı fonunda AQEM-in dəyəri bir daha aydın görünür. Bu, Asiya ölkələrinin strateji baxışlarını bölüşməsi üçün vacib platformadır.

SIIS-in prezidenti Çen Dongxiao isə AQEM-in Beyin Mərkəzləri Forumunun önəmini özünü, ilk növbədə, dialoq imkanlarında göstərdiyinə diqqət çəkib. Onun sözlərinə görə, bərabər və səmimi ünsiyyət qlobal qeyri-sabitlik dövründə xüsusilə vacibdir: “Dünyada multilateralizmə qarşı artan skeptisizm müşahidə olunur və yeni konsensusun qurulmasına ehtiyac var. AQEM bu istiqamətdə mühüm platformadır”.

Çinin Xarici İşlər Nazirliyinin Avropa-Mərkəzi Asiya İşləri Departamentinin səfiri Yan Venbin isə vurğulayıb ki, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə sədrlik edən Azərbaycan qarşılıqlı fəaliyyət, rəqəmsallaşma və davamlı artım mövzusu çərçivəsində bir sıra mühüm əməkdaşlıq təklifləri irəli sürüb. Yan Venbinin sözlərinə görə, Çin Azərbaycanın sədrliyini dəstəkləmək və AQEM çərçivəsində müxtəlif sahələrdə etimadın möhkəmləndirilməsi tədbirlərinin həyata keçirilməsinə, həmçinin AQEM-in məhsuldar sammitinin uğurla keçirilməsinə fəal töhfə vermək üçün bütün tərəflərlə işləyəcək.

Qeyd edək ki, ikigünlük forum öz işini müxtəlif mövzulara həsr olunmuş iclaslarla davam etdirib.

Forumun ilk günündə Şanxay Beynəlxalq Araşdırmalar İnstitutunun direktor müavini Zhao Longun moderatorluğu ilə keçirilən iclasda “Yaşıl və rəqəmsal transformasiya şəraitində təchizat zənciri üzrə əməkdaşlıq” mövzusu müzakirə olunub. İclasa onlayn formatda qoşulan Kambocanın Asiya Vizyonu İnstitutunun prezidenti Chheng Kimlong deyib: “Bu gün Asiyada geosiyasi risklərin aradan qaldırılması və mövcud boşluqların qarşısının alınması məsələsi gündəliyimizin ən aktual mövzularından biridir. Asiya ölkələri regionda bu sahədə nümunə rolunu oynayır və biz, xüsusilə rəqəmsal texnologiya və “yaşıl siyasət” sahələrində yeni vizyona doğru irəliləyirik”.



Şri-Lankanın Lakşman Kadirqamar Beynəlxalq Münasibətlər və Strateji Tədqiqatlar İnstitutunun İdarə Heyətinin üzvü YN Jayarathna foruma onlayn formatda qoşularaq bugünkü strateji vəziyyətin artıq dəyişdiyini və proseslərin sürətlə cərəyan etdiyini deyib: “Asiya artıq beynəlxalq səhnədə öz mövqeyini möhkəmləndirir. Bu mövqenin əsas dayağı isə iqtisadiyyatdır”.

“Avrasiya inteqrasiyasının gücləndirilməsi: “Kəmər və Yol” Təşəbbüsü (BRI), Orta Dəhliz, Beynəlxalq Şimal-Cənub Nəqliyyat Dəhlizi (INSTC) və digər təşəbbüslər” mövzusunda keçirilən iclasda BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev çıxış edərək bildirib ki, Azərbaycanın bu layihələrdə məqsədi kimisə əvəz etmək deyil. Sadəcə, yüklərin qısa zamanda lazım olan nöqtəyə çatdırılmasına kömək göstərməkdir. Onun sözlərinə görə, tarixən İpək Yolu adlanan region təkcə ticarət yox, zəngin mədəniyyət məkanı da olub. Arxeoloji qazıntılar zamanı burada bir çox mədəni abidələr aşkar edilib.

### Zəngəzur dəhlizi barışıq layihəsi olacaq

Zəngəzur dəhlizinin potensialı barədə söz açan BMTM sədri Vaşinqtonda əldə edilmiş razılaşmanı xatırladaraq bu marşrutun bir çox ölkələrin ticarət əlaqələrinə mühüm töhfə verəcəyini bildirib: “Zəngəzur dəhlizi Azərbaycan və Ermənistan arasında barışıq layihəsi olacaq. Getdikcə Orta Dəhlizə tələbat artır. Bizim əsas məqsədimiz bu marşrutlara dəyər qatmaqdır”.

Türkiyənin Strateji Araşdırmalar Mərkəzinin şöbə müdiri Turhan Dilmaç Vaşinqtonda atılan tarixi addımın (Azərbaycan-Ermənistan arasında sülh sazişinin paraflanması - red.) yeni səhifənin açılmasına səbəb olduğunu deyib: “İnanıram ki, bu, regionda daimi sülhə gətirib çıxaracaq. Bu təşəbbüs dənizə çıxışı olmayan ölkələr üçün önəm daşıyacaq, həmçinin Orta Asiya ölkələrinin ticari əlaqələrinin inkişafına kömək göstərəcək”. O, Orta Dəhlizin hərtərəfli inkişafın təzahürü olduğunu qeyd edərək, bu marşrutun Asiyanın Avropa ilə birləşdirilməsinə mühüm töhfə verdiyini deyib.

İranın Siyasi və Beynəlxalq Araşdırmalar İnstitutunun aparıcı elmi işçisi Morteza Damanpak Jami isə müasir dünyada iqtisadi və geosiyasi güclərin istiqamət dəyişdirdiyini müşahidə etdiyini diqqətə çatdırıb: “Əgər XX əsrdə qlobal inkişafın mərkəzi əsasən Qərbdə cəmlənmişdisə, bu gün artıq Şərqə doğru bir hərəkət müşahidə olunur”.

Tədbirin ikinci günündə - sentyabrın 10-da isə “Beynəlxalq təşkilat kimi AQEM - transformasiya və institusional potensialın artırılması”, “Yeni Asiya nizamının formalaşması” və digər mövzularda iclaslar keçirilib. Beynəlxalq ekspertlər, mütəxəssislər mövzularla bağlı fikirlərini səsləndiriblər.

### AQEM-in perspektivləri böyükdür

Tədbirin bağlanış mərasimində isə AQEM-in Baş katibi Kayrat Sarıbay bildirib ki, sessiyanın Bakıda keçirilməsi yeni regional perspektivlərə rəng qatmış oldu. Fundamental təhlükəsizliyin vacibliyini qeyd edən Kayrat Sarıbay AQEM-in perspektivlərinin böyük olduğunu deyib. O, bu platformanın regional problemləri, dayanıqlı inkişafı, iqtisadi məsələləri hər zaman diqqətə saxladığını bildirib. Birgə gündəliyin formalaşdırılmasının vacib olduğunu diqqətə çatdıran Baş katib əlavə edib: “AQEM-in fəaliyyət planının gələcək üçün hazırlanması təmin edilməlidir. Biz qarşılıqlı hörmətə əsaslanan əməkdaşlığımızı davam etdirməliyik”.

BMTM-nin İdarə Heyətinin sədri Fərid Şəfiyev isə söyləyib ki, AQEM-in Beyin Mərkəzləri Forumunun 13-cü sessiyası yalnız müzakirələr meydanı deyil, həm də müxtəlif regionlardan gələn ekspertləri, diplomatları və gəncləri bir araya gətirən mühüm platformadır. Onun sözlərinə görə, Prezident İlham Əliyevin Forumun 13-cü sessiyasının iştirakçılarına ünvanladığı müraciət də AQEM-ə göstərdiyi diqqət və verdiyi dəyərin bariz nümunəsidir. “Burada keçirdiyimiz iclaslarda çox intellektual, dərin və faydalı müzakirələr apardıq. Çox maraqlı fikirlər səsləndirildi, yeni ideyalar irəli sürüldü. Hesab edirəm ki, bu fikirlər və tövsiyələr gələcəkdə AQEM-in fəaliyyət istiqamətlərinə ciddi töhfə verəcək”, - deyə F.Şəfiyev vurğulayıb.

***Nardar BAYRAMLI***

# Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Çin Xalq Respublikasında səfərdədir













Çin Kommunist Partiyasının (ÇKP) dəvəti ilə Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndə heyəti Çin Xalq Respublikasına səfər edib.

Sentyabrın 10-da nümayəndə heyətinin ÇKP Muzeyinə ziyarəti təşkil olunub. Muzeylə tanışlıq zamanı Çinin və ÇKP-nin tarixi haqqında ətraflı məlumat verilib, ölkənin və partiyanın tarixini əks etdirən müxtəlif eksponatlar, qiymətli və nadir kolleksiya nümunələri, stendlərə baxış keçirilib.

Daha sonra nümayəndə heyətinin ÇKP Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsi müdirinin müavini Sun Haiyan ilə görüşü keçirilib.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin cari ilin aprel ayında Çin Xalq Respublikasına dövlət səfəri və sentyabrın 1-də Tiencin şəhərində "ŞƏT plyus" formatında keçirilən görüşdə, sentyabrın 3-də isə yapon işğalına qarşı Çin xalq müqaviməti və İkinci Dünya müharibəsində Qələbənin 80-ci ildönümünə həsr olunmuş paradda iştirakının dövlətlərarası münasibətlərin inkişafı baxımından əhəmiyyəti xüsusi vurğulanıb.

Sun Haiyan hərtərəfli strateji tərəfdaşlığa malik iki ölkə arasında dostluq münasibətlərinin daha da gücləndiyini, müxtəlif sahələrdə, o cümlədən Çin Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında əməkdaşlıq və qarşılıqlı təcrübə mübadiləsinin dərinləşdiyini diqqətə çatdırıb. O, Asiya və Avropa arasında mühüm körpü rolunu oynayan Azərbaycanın Çinin Cənubi Qafqazda çox mühüm tərəfdaşı olduğunu bildirib.

İki ölkənin "Bir kəmər, bir yol" layihəsi çərçivəsində əməkdaşlıq imkanlarının önəminə diqqəti cəlb edən Sun Haiyan elm, təhsil, mədəniyyət və digər sahələrdə işbirliyinin əhəmiyyətini də vurğulayıb.

Nümayəndə heyətinin rəhbəri, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Azərbaycan-Çin parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Hikmət Məmmədov bildirib ki, iki dost ölkə arasında münasibətlərin dinamik inkişafı Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpinin siyasi iradəsi ilə bağlıdır. O, müxtəlif sahələri əhatə edən qarşılıqlı faydalı əlaqələrin hər iki ölkənin milli maraqlarına cavab verdiyini vurğulayıb.

Hikmət Məmmədov Azərbaycan-Çin hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin dərinləşməsində iki ölkənin hakim partiyaları arasında əlaqələrin mühüm rol oynadığını bildirərək 2024-cü ilin noyabr ayında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinin Çinə səfəri zamanı ÇKP ilə əməkdaşlıq memorandumunun imzalanmasının önəminə diqqəti cəlb edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparılıb.

# Uçot dərəcəsi dəyişmədi

Mərkəzi Bankın (MB) sentyabrın 10-da qəbul etdiyi qərara əsasən, uçot dərəcəsi 7 faiz, faiz dəhlizinin aşağı həddi 6 faiz, faiz dəhlizinin yuxarı həddi isə 8 faiz səviyyəsində dəyişməz saxlanılıb. Qərar ölkədəki mövcud inflyasiya hədəfləri dəhlizinə və gözləntilərə, eləcə də valyuta bazarında vəziyyətə əsasən qəbul edilib. Beləliklə, son qlobal iqtisadi proseslər, daxili makroiqtisadi vəziyyət, valyuta bazarında davam edən sabitlik, həmçinin pul siyasəti qərarlarının ötürücülüyü uçot siyasətində əvvəlki sabit rejimin saxlanılmasını şərtləndirib.

## Qlobal mühit əlverişli, inflyasiya idxalı məhduddur

Uçot dərəcəsi ölkədəki cari iqtisadi vəziyyət və inflyasiya səviyyəsi nəzərə alınaraq təyin edilir. Əgər inflyasiya səviyyəsi yüksəlirsə, Mərkəzi Bank uçot dərəcəsini yüksəldir və əksinə, inflyasiya səviyyəsi endikcə, uçot dərəcəsi də endirilir. MB bildirir ki, inflyasiya proqnozlaşdırılan trayektoriya ilə hərəkət edir. 2025-ci ilin iyulunda 12 aylıq qiymət indeksi 5 faiz təşkil edib. İllik qiymət artımı qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə 6,2 faiz, ödənişli xidmətlər üzrə 5,6 faiz, qeyri-qida məhsulları üzrə isə 2,1 faiz olub. İllik baza inflyasiya isə 4,6 faiz təşkil edib.

Ötən iclasdan bəri inflyasiya üzrə risk balansında əhəmiyyətli dəyişiklik müşahidə olunmayıb. Qlobal ticarətdə gedən proseslər əmtəə və maliyyə bazarlarında dalğalanmalara səbəb olmaqda davam edir. Dünya əmtəə, xüsusilə də ərzaq qiymətlərinin davamlı azalması, beynəlxalq daşıma xərclərinin pandemiyadan əvvəlki səviyyəyə yaxınlaşması, ticarət tərəfdaşlarında həyata keçirilən sərt pul siyasəti və nominal effektiv məzənnənin bahalaşması inflyasiya idxalına azaldıcı təsir göstərib. Belə ki, qlobal iqtisadi aktivliyin zəifləməsi, eləcə də qlobal əmtəə, enerji və ərzaq qiymətlərində azalmanın davam etməsi ölkəyə inflyasiya idxalını məhdudlaşdırıb. Təhlilərə əsasən, son aylarda xarici amillər üzrə qeyri-müəyyənliklər qalsa da, onların inflyasiyaya artırıcı təsiri əhəmiyyətli olmayıb. Beynəlxalq Valyuta Fondunun (BVF) məlumatına görə, 2025-ci ilin iyulunda əmtəə qiymətləri indeksi illik 0,7 faiz, o cümlədən ərzaq qiymətləri indeksi 3,3 faiz azalıb. BVF iyulda 2025-ci il üzrə qlobal inflyasiya proqnozunu azalma istiqamətində dəyişib, 2026-cı ilə dair proqnozu isə dəyişməz saxlayıb.



Məhz bu amillər Azərbaycanı xarici inflyasiya təzyiqlərindən neytrallaşdırır və Mərkəzi Bankın arxayınçılığı da məhz budur. Ona görə də uçot dərəcəsinin sabit saxlanılması konservativ və

## Valyuta bazarında təklif tələbi üstələyib

təmkinli siyasətin nəticəsi hesab edilə bilər.

Aparılan dəyərləndirmələr göstərir ki, cari ilin ötən dövründə nağd və qeyri-nağd seqmentlər əhatə olunmaqla, ümumilikdə, valyuta bazarında təklif tələbi üstələyib. Rezident fiziki şəxslərin əmanətlərinin dollarlaşma səviyyəsinin azalmaqda davam etməsi məzənnə ilə bağlı gözləntilərin nikbin olduğunu göstərir. Valyuta bazarında tarazlığın fundamentində dayanan xarici sektor göstəriciləri əlverişli olaraq qalır. İlkin rəqəmlərə görə tədiyə balansının cari əməliyyatlar balansında 6 ay ərzində 2,3 milyard dollar və ya ÜDM-in 6,3 faiz səviyyəsində müsbət saldo qeydə alınıb. Dövlət Gömrük Komitəsinin məlumatına görə, 2025-ci ilin 7 ayında da xarici ticarət balansının müsbət saldosu 1,6 milyard dollar təşkil edib. Mərkəzi Bankın 2025-ci və 2026-cı illərin yekunu üzrə tədiyyə balansının cari hesabının profisitli olacağı ilə bağlı proqnozu isə dəyişməz qalır.

## Pul bazarında aktivlik yüksəkdir

Ötən dövr ərzində pul bazarında qısamüddətli faizlərdə də stabil dinamika müşahidə olunub. Təminatsız pul bazarında faizlər Mərkəzi Bankın faiz dəhlizi daxilində hərəkət edir. Maliyyə Nazirliyi tərəfindən vahid xəzinə hesabının sərbəst qalığının yerləşdirilməsi üzrə keçirilən depozit hərracları bank sektorunun likvidlik mövqeyinə artırıcı təsir göstərməkdə davam edir. Belə bir şəraitdə Mərkəzi Bank açıq bazar əməliyyatları ilə pul siyasətindən kənar amillərin təsirini minimallaşdırmağa çalışır. Pul bazarında aktivlik yüksək olaraq qalır.

## Qlobal ərzaq bahalaşması gözlənilmir

Ehtimallara görə, xarici faktorlarda əsas rol oynayan mal və əmtəələrin, xüsusilə də qlobal ərzaq bahalaşması gözlənilmir. Baza ssenarisinə əsasən, illik inflyasiyanın hədəf daxilində olacağı, 2025-ci ilin yekununda 5,7 faiz olacağı gözlənilir. İnflyasiya proqnozunun davamlı olaraq hədəfdə qalması və valyuta bazarında sabitliyin davam etməsi pul siyasətinin yumşaldılması üçün zəmin yaradır. Ancaq bununla yanaşı, qiymət sabitliyini təmin etmək üçün səncamındakı bütün vasitələrdən istifadə davam etdiriləcək. Qiymət indeksində təsiredici amillərdən biri olan daxili faktor inflyasiya ilə mübarizə tədbirlərinin bir hissəsi kimi diqqətdə saxlanılacaq.

Faiz dəhlizinin parametrləri ilə bağlı növbəti qərar isə faktiki inflyasiyanın dəyişimi, oktyabrda yenilənəcək makroiqtisadi proqnozlar, eyni zamanda, xarici və daxili risk amillərinin dinamikasından asılı olaraq veriləcək.

*E.CƏFƏRLİ*

# Sosial intibahın təsisində iki sütun...



## Vətəndaş cəmiyyəti və hüquqi dövlətin qarşılıqlı əlaqəsi

Vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu müasir dünyada demokratik inkişafın əsasını təşkil edən iki vacib konsepsiyadır. Hər iki anlayış insan hüquqlarının qorunması, azadlıqların təmin olunması və vətəndaşların cəmiyyətdə aktiv iştirakının stimullaşdırılması məqsədini güdür. Lakin bu iki anlayış arasında sıx bir əlaqə mövcuddur və bir-birini tamamlayır. Bir tərəfdən vətəndaş cəmiyyəti fərdi azadlıqların genişləndirilməsinə, digər tərəfdən isə hüquqi dövlət hüquqlarının təmin edilməsi və ədalətli bir cəmiyyətin qurulmasına xidmət edir.

Vətəndaş cəmiyyəti dövlətin təsirindən azad olan vətəndaşların qurduğu müstəqil təşkilatların və qurumların ümumi adıdır. Bu, həm də vətəndaşların fərdi hüquqlarını müdafiə etmək, sosial, iqtisadi və mədəni hüquqlarını təmin etmək məqsədilə fəaliyyət göstərən təşkilatların, birliklərin, qeyri-hökumət təşkilatlarının (QHT) fəaliyyətini əhatə edir. Vətəndaş cəmiyyəti yalnız dövlətin sosial və iqtisadi siyasətlərini izləyən və tənqid edən deyil, həm də təkliflər verən və fərdi hüquqların qorunması üçün təzyiq göstərən mühüm bir aktordur.

### Sosial aktivlik

Vətəndaş cəmiyyətinin güclü olması demək olar ki, demokratiyanın təməlini təşkil edir. Çünki vətəndaşların müstəqil şəkildə fəaliyyət göstərməsi və onların hüquqlarını müdafiə etməsi, dövlətin və hökumət strukturlarının həddindən artıq güc yığmasına səbəb olur. Vətəndaş cəmiyyətinin formalaşması üçün isə təhsil, informasiya azadlığı, fikir mübadiləsi, mətbuat azadlığı kimi əsas prinsiplər əhəmiyyətli rol oynayır.

### Ədalət və bərabərlik...

Hüquqi dövlət anlayışı hüquqların və qanunların yalnız sənəd üzərində deyil, real həyatda da tətbiq olunmasını və hər bir vətəndaşın qanun qarşısında bərabər olmasını təmin edən bir sistemdir. Hüquqi dövlət, qanunların aliliyini təmin edərək dövlətin gücünün öz sərhədləri daxilində qalmasını və vətəndaşların hüquqlarının müdafiə olunmasını təmin edir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu” istiqaməti üzrə hazırlanmışdır**

### Vətəndaş cəmiyyəti güclü dövlətin təminatıdır

Vətəndaş cəmiyyəti güclü bir dövlətin bünövrəsini təşkil edir. Dövlət cəmiyyətin səsini eşidib, onu nəzərə aldığı halda, həm sosial sabitlik təmin edilir, həm də iqtisadi inkişafı sürətlənir. Lakin vətəndaş cəmiyyəti olmayan, vətəndaşların səsini çıxara bilmədiyi bir dövlət, qorxulu bir yolun başlanğıcıdır. Çünki bu halda, insanlar öz hüquqlarını müdafiə etməkdə və sosial problemləri həll etməkdə kənarda qalacaqlar.

Vətəndaş cəmiyyəti, yalnız sosial ədalət və insan hüquqlarının qorunması ilə deyil, həm də dövlətin sağlam fəaliyyətini təmin edərək, demokratik bir dövlətin yaranmasına kömək edir. Vətəndaş cəmiyyəti nə qədər güclü olsa, dövlətin də o qədər güclü və ədalətli olacağı şübhəsizdir. Bu baxımdan, vətəndaş cəmiyyətinin inkişafı hər bir ölkənin gələcəyi üçün əvəzolunmazdır. Ona görə də vətəndaş cəmiyyəti hər zaman ən vacib amillərdən biri olaraq qalacaq, çünki o yalnız dövlətin yox, bütün cəmiyyətin gələcəyini formalaşdırır.

Qeyd edək ki, müasir dünyada hüquqi dövlətin qurulması təkcə hüquq qaydalarının yaradılması deyil, həm də hüquqi məsələlərdə ictimai müzakirələrin aparılması, qanunların ədalətli və şəffaf şəkildə tətbiq olunması, insan hüquqlarının qorunması və cəmiyyətdə bərabərliyin təmin olunmasıdır. Bütün bu prinsiplər vətəndaş cəmiyyətinin aktivliyinin və siyasi iştirakı nəticəsində reallaşır.

### Güclü cəmiyyət, güclü dövlət...

Həm hüquqi dövlətin, həm də vətəndaş cəmiyyətinin inkişafı güclü bir cəmiyyətin formalaşmasının təməlini təşkil edir. Bir-birini gücləndirən bu iki konsepsiya, təkcə hüquqların təminatını deyil, həm də sosial ədalətin və dövlətin dayanıqlı inkişafına şərait yaradır. Güclü və inkişaf etmiş hüquqi dövlətlər vətəndaş cəmiyyətinin fəallığını qəbul edir və bu fəallığın ölkənin ümumi inkişafına imkan verir.

Beləliklə, vətəndaş cəmiyyəti, yalnız sosial ədalət və insan hüquqlarının qorunması ilə deyil, həm də dövlətin sağlam fəaliyyətini təmin edərək, demokratik bir dövlətin yaranmasına kömək edir. Vətəndaş cəmiyyəti nə qədər güclü olsa, dövlətin də o qədər güclü və ədalətli olacağı şübhəsizdir. Bu baxımdan, vətəndaş cəmiyyətinin inkişafı hər bir ölkənin gələcəyi üçün əvəzolunmazdır.

***Yeganə***

# V Respublikanın və Makronun sonu: 67 il sonra tarix təkrarlanır...

## Yelisey sarayı xilas yolu axtarışındadır

Fransada artıq bir müddətdir ki, davam edən hökumət böhranı axır ki, özünün “məntiqi nəticəsini” göstərdi - Fransa parlamentinin aşağı palatası baş nazir Fransua Bayrunu vəzifəsindən azad edib. Xatırladaq ki, sentyabrın 8-də Milli Assambleyanın deputatlarının əksəriyyəti büdcə mübahisəsi fonunda doqquz aylıq səlahiyyət müddətindən sonra 74 yaşlı hökumət başçısına etimadsızlıq nümayiş etdirib. 194 deputat Bayru hökumətinə yenə də etimad göstərilməsinin lehinə səs versə də, 364 deputat bunun əleyhinə çıxıb. Qeyd edək ki, hökumətə etimadla bağlı səsvermədən əvvəl Bayru Milli Assambleyanın fövqəladə iclasında növbəti dəfə büdcəsinə dəstək qazanmağa çalışıb - müxalifət isə hələ sessiyadan əvvəl 2026-cı il üçün qənaət planına dəstəyi gücləndirmək üçün səsvermə fürsətindən istifadə etmək istəyən Bayruya etimad göstərməyəcəyini açıqlayıb. Onlar bildiriblər ki, Fransanın yüksək borcu, Bayruya görə, ölkənin varlığını təhdid edir. “Sizin hökuməti devirmək imkanınız var” amma “reallığı silmək” yox”, - deyə vəzifədən gedən baş nazir etimad səsverməsindən əvvəl Milli Assambleyanın müxalifətçi deputatlarına səslənib.

Qeyd edək ki, Fransua Bayru prezidentyönlü siyasi koalisiyaya daxil olan mərkəzçi Demokratik Hərəkat (MoDem) partiyasının lideri idi. O, 2024-cü ilin dekabrında Fransanın Baş naziri təyin edildi - ondan əvvəlki baş nazir Mişel Barnye isə öz postunda cəmisi 3 ay otura bilmişdi. Bayru 1993-1997-ci illərdə Fransanın Milli Təhsil Naziri olub. 2017-ci ildə isə qısa müddət ərzində Ədliyyə Nazirliyinə rəhbərlik edib. O, 2002, 2007 və 2012-ci il prezident seçkilərində də namizəd olub.

Artıq “eks” olan baş nazir sentyabrın 9-da prezident Emmanuel Makronla görüşmək üçün Yelisey Sarayına gəlib və istefa ərizəsini təqdim edib. Dövlət başçısı bu ərizəni dərhal imzalayıb...

### Aİ ölkələri arasında ən böyük borcu olan ölkə...

Qeyd edək ki, hökumət 44-45 milyard avro həcmində kəsintilər təklif etmişdi. Bu təşəbbüsə pensiyalar, sosial yardımlar və iki ümumi tətil gününün ləğvi kimi kəskin addımlar da daxil idi - bu isə, həm sol, həm sağ siyasi dairələrdə geniş narazılıq yaratdı. Yaranan situasiya geniş ictimaiyyət və siyasətçilər tərəfindən “brutal” və qeyri-ədalətli sayıldı. Atlantik Şura (Atlantic Council) ekspertləri Bayrunun əsas səhvinin konsensus yaratmağa çalışmaması olduğunu irəli sürürlər - onların fikrincə, Bayru xüsusilə payız ayında dialoqa daha açıq olmalı idi. Hökumətin yaratdığı riskli vəziyyət, yenidən etimad sarsılmasına görə investorlar Fransanı Avrozonanın “periferiyası” kimi dəyərləndirməyə başlayıblar - bir müddət öncə borc faizləri Yunanıstan və İtaliya səviyyəsinə yaxınlaşdı və kredit risk primləri artdı. Əhalinin böyük hissəsi hökumətin gəlirlər üçün büdcə kəsintiləri planını sosial ədalət prinsipinə zidd adlandırdı. Bu faktorlar Bayru hökumətinin qısa müddətdə ictimai və maliyyə baxımından etimadsız, populist və qeyri-reformist kimi dəyərləndirilməsinə səbəb oldu.

Qeyd edək ki, bir çox siyasi ekspertlər Bayrunun istefasını Fransa üçün siyasi böhranın davamı adlandırır. Büdcənin qəbul edilməsi və iqtisadi problemlərin həllinin zəruri olduğu bir vaxtda ölkənin hökumətsiz qalması vəziyyəti çətinləşdirir - nəzərə alınmalıdır ki, Fransanın dövlət borcu və büdcə kəsiri Aİ ölkələri arasında ən böyüklərdəndir.

### Fransa yol ayrıcında...

Bir çox siyasətçilər hətta yaranan durum qarşısında prezident Makronun istefasını da qaçılmaz sayır. Yeni baş nazir təyin edilsə də, yaranan situasiya çıxılmaz görünür - siyasətçilər hazırkı mənzərəni IV Respublikanın son günləri ilə müqayisə edirlər. Məhz 1958-ci ildə Şarl De Qoll Dördüncü Respublika üçün xarakterik olan baş nazirlərin tez-tez dəyişməsinin qarşısını almaq üçün prezidentin səlahiyyətlərini əhəmiyyətli dərəcədə gücləndirən konstitusiya islahatına başlamışdı. İndi isə iki il ərzində Fransa dördüncü dəfə hökumətsiz qalır. Bildirilir ki, birinci hakimiyyəti dövründə Makron partiyasının rəhbərlik etdiyi “mərkəzçi” koalisiyanın sayəsində parlamentdə sol və sağ arasında məharətlə manevr edə bilirdi. Hazırda Makron parlamenti buraxsa, onun koalisiyası daha çox yer itirəcək - rəy sorğularına görə, Marin Le Penin partiyası və onu dəstəkləyənlər 31,5 faiz, birləşmiş sol qüvvələr 23,5 faiz, prezident koalisiyası isə 14 faiz səs ala bilər. Hər iki variant isə Makronun sonu deməkdir. Makron üçün ən uğurlu yol isə sosialistlər ilə birgə kompromis hökumətinə getmək sayılır.



Ən mühüm amillərdən biri isə böhranın yayılma arealının mümkünlüyüdür. Belə ki, böhran Avropada əks-səda doğurur - Fransadakı siyasi parçalanma Brüssel və Berlin üçün də narahatlıq yaradır. Bu, Avropa müdafiəsindən, büdcə sabitliyindən, strateji müstəqillikdən danışan qitəçi modeli poza bilər...

### Yeni baş nazir: müxalifət seçki tələb edir

Bayruya etimad səsverməsi öncəsi Fransa Milli Assambleyasının Sosialist Partiyasından olan üzvü Boris Vallot bildirmişdi ki, Emmanuel Makron xahiş etsə, sosialistlər ölkəni idarə etməyə hazırdırlar. İfrat sağçı lider Marin Le Pen də öz növbəsində Fransa prezidentini növbədənkənar parlament seçkiləri keçirməyə çağırıb. Onun sözlərinə görə, Bayrunun istefası ölkənin “xəyali hökumətinin aqoniyasının sona çatmasına” gətirib çıxaracaq.

Yeni baş nazir isə, Bayru hökumətində müdafiə naziri olan Sebastyan Lekornu təyin olunub. Bununla bağlı Yelisey sarayı məlumat yayıb. Yeni baş nazir 11 iyun 1986-cı ildə Aubonne (Val d’Oise departamenti) şəhərində anadan olub. O, erkən yaşlarından siyasətlə maraqlanıb, 16 yaşında Xalq Hərəkatı Uğrunda Birlik partiyasının fəal üzvü olub. Hüquq üzrə bakalavr, daha sonra Pantheon-Assas Universitetində hüquq üzrə magistr dərəcəsi alıb. 2005-ci ildə Fransa Milli Assambleyasının Eure departamentindən Frank Gilardın köməkçisi kimi işə başlayıb. 2010-cu ildə Eure departamentində partiya qrupunun rəhbərinin müavini vəzifəsinə seçilib və deputat Frank Gilardın müavini olub. 5 aprel 2014-cü ildən 2015-ci il dekabrın 4-dək Vernon şəhərinin meri kimi fəaliyyət göstərib. 2017- 2018-ci illərdə Eduard Filipin başçılıq etdiyi ikinci hökumətində İnteqrasiya edilmiş Ekoloji



Keçid Nazirinin Dövlət Katibi vəzifəsini tutub. 2018-2020-ci illərdə yerli idarəetmədən məsul nazir, 2020-ci ildən 2022-ci ilə qədər Fransanın Xarici Ərazilər Naziri olub. 20 may 2022-ci ildən Fransanın müdafiə naziridir.

***P.İSMAYILOV***

# Rusiya PUA-ları Polşa səmasında...

## Qərb ölkələri bu hadisədən ciddi narahatdır

Rusiyanın Ukraynaya hücum zamanı istifadə etdiyi pilotsuz uçuş aparatları (PUA) sentyabrın 9-dan 10-a keçən gecə Polşanın hava məkanına daxil olub. Polşa ordusu ilk dəfə ərdusunu və NATO qüvvələrini Rusiya dronlarına qarşı istifadə edib. Bu barədə Polşanın Ordu Komandanlığı məlumat yayıb.

Belə ki, Polşa Ordu Komandanlığı ölkənin hava məkanına daxil olan və Rusiyaya məxsus olduğu ehtimal edilən bir neçə pilotsuz uçuş aparatının (PUA) hərbi hava qüvvələri (HHQ) tərəfindən vurulduğunu açıqlayıb. Komandanlıq Rusiyanın Ukraynaya hücumu ilə əlaqədar ölkənin hava məkanını pozan dronların vurulması barədə ilk dəfədir məlumat yayıb. Məlumatda bir neçə dronun vurulması qeyd olunsa da, dəqiq say göstərilməyib. "Bu, əhalinin təhlükəsizliyi üçün real təhdid yaradan təcavüz aktıdır", - deyə Polşa Silahlı Qüvvələri Baş Komandanlığının "X" sosial şəbəkəsində yaydığı açıqlamada bildirilib.

### PUA-lar məhv edilib

Polşanın Baş naziri Donald Tusk da X səhifəsində paylaşım edərək ordu rəhbərliyi, müdafiə naziri və prezidentlə daim əlaqə saxladığını bildirib. Baş nazir məsələ ilə əlaqədar hökumətin fövqəladə iclasını keçirib, eləcə də NATO rəhbərliyi hadisə barədə məlumatlandırılıb. D.Tusk bəyan edib ki, Polşa Silahlı Qüvvələri ölkənin hava məkanına girən obyektləri məhv etmək üçün silah tətbiq edib. O, sentyabrın 10-da səhər saatlarında "X" sosial platformasında yazıb: "Polşanın hava məkanının dəfələrlə pozulması ilə əlaqədar əməliyyat aparılır. Hərbçilər həmin obyektlərə qarşı silah tətbiq ediblər". Tusk bildirib ki, ölkə Prezidenti və müdafiə naziri ilə daimi təmasdadır, həmçinin NATO Baş katibi Mark Rütteyə vəziyyətlə bağlı məlumat verib.

Polşa Prezidenti Karol Navrotski isə jurnalistlərə açıqlamasında Rusiyanın ölkənin hava məkanını pozması ilə bağlı NATO Müqaviləsinin 4-cü maddəsinin tətbiqini müzakirə edildiyini bildirib: "Milli Təhlükəsizlik Bürosunda NATO Müqaviləsinin 4-cü maddəsinin tətbiq imkanları müzakirə edilib". Qeyd edək ki, NATO-nun 4-cü maddəsi üzv ölkələrə müttəfiqlərlə məsləhətləşmə aparmaq hüququ verir. Əgər bir NATO ölkəsi öz təhlükəsizliyinin pozulduğunu və ya təhdid altında olduğunu hesab edirsə, o, NATO-nun digər üzvləri ilə məsləhətləşmələr aparmaq üçün 4-cü maddədən istifadə edə bilər. Bu maddə dərhal hərbi müdaxilə tələb etmir. Məqsəd məsələnin müzakirəsi, informasiya paylaşımı və birlikdə addımların planlaşdırılmasıdır. 4-cü maddə NATO-nun kollektiv müdafiə prinsipi ilə (5-ci maddə) qarışdırılmamalıdır. 5-ci maddə faktiki hərbi müdaxilə üçün istifadə olunur, 4-cü maddə isə yalnız konsultasiya və koordinasiya üçündür.



### Rusiya diplomatı Polşa XİN-ə çağırılıb

Vurulmuş dronların ilk qalıqları Polşanın şərqindəki Çosnovka kəndində tapılıb. Əhaliyə dron qalıqlarına yaxınlaşmamaq və aşkarlandığı təqdirdə polisə məlumat vermək barədə müraciət edilib. Vəziyyətlə əlaqədar Polşada dörd hava limanı, o cümlədən Varşava aeroportu müvəqqəti bağlanıb. Ordunun fəaliyyətləri ilə əlaqədar Polşanın hava məkanının bir hissəsi də bağlanıb və heç bir uçuş və eniş həyata keçirilməyib.

Qeyd edək ki, Rusiyanın Polşadakı səfirliyinin müvəqqəti işlər vəkili Andrey Ordaş insidentlə əlaqədar bu ölkənin Xarici İşlər Nazirliyinə çağırılıb. XİN Polşa öz ərazisində vurulmuş dronların Rusiyaya məxsus olduğunu bildirib, amma Andrey Ordaş bu ittihamları əsassız sayıb. Diplomat "RİA Novosti"yə açıqlamasında deyib ki, dronların Rusiyaya aid olduğunu sübut edən heç bir dəlil təqdim edilməyib.

Bununla belə, Avropa İttifaqından (Aİ) və bəzi Qərb ölkələrindən Rusiyaya qarşı tənqidlər səsləndirilib. Aİ-nin Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas bildirib ki, Rusiya pilotsuz uçuş aparatlarının Polşanın hava məkanına daxil olması qəsdən edilib: "Ötən gecə Polşada müharibənin başlanğıcından (Rusiya-Ukrayna - red.) bəri Rusiya tərəfindən Avropa hava məkanının ciddi şəkildə pozulmasını müşahidə etdik və əlamətlər göstərir ki, bu təsadüfi deyil, qəsdən edilib". O, Aİ-nin Polşa ilə tam həmrəyliyini ifadə edib və Ukraynaya dəstəyin artırılması, Avropanın müdafiəsinə investisiya qoyulmasının vacibliyini qeyd edib.

Böyük Britaniyanın Baş naziri Kir Starmer isə "Arzuedənlər koalisiyası"nın Rusiya Prezidenti Vladimir Putinə təzyiqi artırmağa davam edəcəyini bildirib. K.Starmer deyib ki, Rusiyanın pilotsuz uçuş aparatlarının NATO üzvü olan ölkənin ərazisinə müdaxiləsi son dərəcə narahatedici və məsuliyyətsiz addımdır. Baş nazir həmçinin polşalı həmkarı Donald Tuskla telefon danışığı apardığını və ona dəstəyini ifadə etdiyini söyləyib.

O vurğulayıb ki, bu insident Ukrayna xalqının üzləşdiyi çətinlikləri nümayiş etdirir. "Rusiya tərəfinin atdığı bu son dərəcə məsuliyyətsiz addım bizə Prezident Putinin sülhə qarşı açıq-aşkar etinasızlığını və günahsız ukraynalıların hər gün davamlı atəşə məruz qaldığını xatırladır",- deyən K.Starmer əlavə edib ki, o və "Arzuedənlər koalisiyası" Ukraynada ədalətli və davamlı sülh əldə edilənə qədər Rusiyaya qarşı mövqeyini dəyişməyəcək.

### NATO insidenti hücum kimi qiymətləndirmir?

ABŞ konqresmeni Co Vilson isə Rusiyanı Polşaya müharibə elan etməkdə ittiham edib və Rusiyaya zərbələr endirmək üçün Ukraynanı silahla təmin etməyə çağırıb. O, X səhifəsində yazıb: "İranın "Şahid" PUA-larının NATO üzvü olan Polşaya hücumu müharibə aktından başqa bir şey deyil". Konqresmen Tramp administrasiyasını dərhal bu cür hərəkətlərə qarşı durmağa çağırıb: "Rusiya hərbi maşınını məhv etməyə qadir olan sərt sanksiyaları təcili olaraq tətbiq etmək və Ukraynanı Rusiya ərazisinə zərbə endirməyə imkan verəcək silahlarla təmin etmək lazımdır. Kreml artıq təkcə Ukraynadakı müharibə ilə kifayətlənmir - indi Moskva "Rusiyanın sərhədləri olmadığını" bəyan etməklə NATO-nun qətiyyətini sınayır".

"Reuters" agentliyi isə NATO-dakı mənbələrə istinadla yazıb ki, alyans Ukraynadakı müharibə fonunda Rusiya PUA-larının Polşanın hava məkanını pozması ilə bağlı insidenti hücum kimi qiymətləndirmir. Bu yanaşma, NATO-nun Rusiya ilə birbaşa qarşıdurmaya maraqlı olmadığını göstərir.

*N.BAYRAMLI*

# İsraildən HƏMAS-a növbəti zərbə

## Təl-Əviv qruplaşma liderlərini Qətərdə vurdu

Yaxın Şərqdə planlaşdırılan sülh planları yenidən "təxirə düşəcək" kimi görünür. Belə ki, İsrail Qətərin paytaxtına zərbələr endirərək, HƏMAS-ın bir neçə liderini öldürüb. Qeyd edək ki, Qətər İsrail və Həmas arasında 2023-cü ilin oktyabrından başlanan yeni müharibənin sülh ilə dayandırılması prosesində əsas vasitəçilərdən biridir.

Vurğulandığı kimi, sentyabrın 9-da İsrail Müdafiə Qüvvələri (IDF) və Baş Təhlükəsizlik Xidməti (Şin Bet) Qətərin paytaxtı Dohada olan HƏMAS rəhbərliyinə zərbələr endiriblər. "Al Arabiya" və "Channel 12" telekanallarının məlumatına görə, hücumda HƏMAS lideri, 2024-cü ilin oktyabrından bu qrupa rəhbərlik edən Xəlil əl-Həyya, onun siyasi bürosunun rəhbəri Xalid Məşəl və HƏMAS üzvü Zahir Cabarin həlak olub.

### Qətər pisləyir...

Qətər İsrailin zərbələrini təsdiqləyib. Ölkənin Xarici İşlər Nazirliyinin sözçüsü Məcid bin Məhəmməd əl-Ənsari sosial mediada yazıb: "Bu cinayətkar hücum bütün beynəlxalq qanunların və normaların kobud şəkildə pozulmasıdır və qətərlilərin və Qətər sakinlərinin təhlükəsizliyinə ciddi təhdid yaradır". O vurğulayıb ki, Doha İsrailin ehtiyatsız davranışına, regional təhlükəsizliyə davamlı zərbə vurmasına və ya Qətərin təhlükəsizliyi və suverenliyinə qarşı yönəlmiş hər hansı hərəkətlərə dözməyəcək.

İsrailin baş nazirinin ofisi isə bildirib ki, əməliyyat tamamilə İsrailin təşəbbüsüdür: İsrail tərəfindən başlayıb, İsrail tərəfindən həyata keçirilib və buna görə bütün məsuliyyət İsrailin üzərinə düşür. Bildirilib ki, əməliyyatın həyata keçirilməsi qərarı Qüds və Qəzzada baş verən son hücumlardan sonra verilib. Xatırladaq ki, sentyabrın 8-də səhər saatlarında Qüdsün Ramot qovşağında iki silahlı şəxs avtobusa minərək sərnişinlərə atəş açaraq, 4 nəfəri öldürüb. İsrail rəhbərliyinin fikrincə, Dohadakı əməliyyat həddindən artıq dəqiqlik və səmərəliliklə həyata keçirilib və tamamilə əsaslandırılıb.

### İDF məlumat yayıb...

İDF-nin məlumatına görə, öldürülən HƏMAS liderləri təşkilatın fəaliyyətində uzun illərdir iştirak edirlər və 7 oktyabr 2023-cü il hücumuna görə birbaşa məsuliyyət daşıyırlar. İsrail ordusunun bəyanatında deyilir ki, hücumdan əvvəl İsrail mülki şəxslərə dəyən zərəri minimuma endirmək üçün tədbirlər görüb və dəqiq idarə olunan hərbi sursatlardan istifadə edib. "IDF və Şin Bet oktyabrın 7-də törədilən qırğına görə məsuliyyət daşıyan HƏMAS terror təşkilatını məğlub etmək üçün qətiyyətli addımlar atmağa davam edəcək", - deyə İDF bildirib.

### Vaşinqton məlumatlandırılıb - amma iştirak etməyib: Ağ Evdə ciddi narazılıq

İsrailin dövlət televiziyası Kanın məlumatına görə, İsrail Dohada Həmas liderlərinə zərbə endirmək planları barədə Vaşinqtonu məlumatlandırıb. Baş verənlər Ağ Evdə ciddi narazılıq yaradıb. "Axios" nəşri hücumun Ağ Evdə sarsıntıya səbəb olduğunu və ABŞ prezidenti Donald Trampın müşavirlərini qəzəbləndirdiyini yazıb. ABŞ tərəfi əslində HƏMAS-ın Trampın Qəzzada sülh təşəbbüsünə cavabını gözləyirdi. Məlumata görə, Trampın nümayəndəsi Stiv Vitkoff qətərliləri əvvəlcədən xəbərdar etməyə çalışsa da, bombalar artıq hədəfə düşmüşdü. İsrailin baş naziri Benyamin Netanyahuya yaxın müşavir Ron Dermer isə planı bildiyi halda Kuşner və Vitkoffla görüşdə bunu gizlədib. Donald Tramp Netanyahuyla telefon danışığında narahatlığını ifadə edib, lakin Netanyahu hücumun sülh prosesinə kömək edəcəyini iddia edib. Tramp isə Qətər əmiri və baş naziri ilə danışaraq "belə hücum bir daha təkrarlanmayacaq" sözünü verib. Ağ Evin mətbuat katibi Karolin Livitt bəyan edib ki, "Qətər bizim güclü müttəfiqimizdir. Onun ərazisinə zərbə nə İsrailin, nə də Amerikanın məqsədlərinə xidmət edir". O, həmçinin bildirib ki, prezident Tramp bütün girovların və ölənlərin cəsədlərinin azad edilməsini və müharibənin dərhal dayandırılmasını istəyir. Qeyd olunur ki, hücum ABŞ-ın regiondakı ən böyük hərbi bazasının yaxınlığında baş verib.

Qətər isə əvvəlcədən məlumatlandırılmadığını bildirir. Vurğulandığı kimi, Qətər İsrail və HƏMAS arasında danışıqlar prosesində (Misir və ABŞ ilə birlikdə) əsas platforma və vasitəçi ölkələrdən biridir.

"Əl-Cəzirə" HƏMAS-dakı mənbəyə istinadən xəbər verir ki, Dohaya hücum Həmas rəhbərliyinin Qəzza zolağında atəşkəslə bağlı Amerikanın təklifini müzakirə etmək üçün toplaşdığı vaxta təsadüf edib. Danışıqlarda vasitəçi kimi iştirak edən Misir də İsrailin zərbələrini qətiyyətlə pisləyib və bunu Qətərin suverenliyinə birbaşa hücum adlandırıb. Misir prezidentinin bəyanatında deyilir: "Misir Qətər Dövlətinin rəhbərliyi və xalqı ilə tam həmrəyliyini ifadə edir və beynəlxalq ictimaiyyəti İsrailin bu kobud pozuntusuna görə hüquqi və mənəvi məsuliyyəti öz üzərinə götürməyə, İsrailin təcavüzünü dayandırmaq üçün təcili tədbirlər görməyə və məsuliyyət daşıyanları məsuliyyətə cəlb etməyə çağırır".



### HƏMAS-a son xəbərdarlıq edilmişdi...

Yeri gəlmişkən, sentyabrın 7-də ABŞ NƏMAS-a xəbərdarlıq etmiş və girovların qatarılmasının zərurətini önə sürmüşdü. Bundan sonra HƏMAS masa arxasında müzakirələrə hazır olduğun demişdi. Qrup "İsrailin gələcək razılaşma çərçivəsində öhdəliklərini yerinə yetirəcəyinə zəmanət" tələb edib. İsrail tərəfinin məlumatına görə, HƏMAS Qəzza zolağında 20 canlı girov və 28 meyit saxlamağa davam edir. İsrail hakimiyyəti bəyan edib ki, onlar "qismən sövdələşmələrdə" maraqlı deyillər, bütün girovların eyni vaxtda azad edilməsində israrlıdırlar və HƏMAS ilə mümkün danışıqların nəticəsindən asılı olmayaraq Qəzza şəhəri üzərində nəzarəti bərqərar edəcəklər.

### Beynəlxalq aləm diplomatik səylərə üstünlük verməyə çağırış edir

Qeyd edək ki, Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd bin Salman Əl Səud, BƏƏ baş nazirinin müavini və xarici işlər naziri Şeyx Abdullah bin Zayed Əl Nəhyan, Fələstinin vitse-prezidenti Hüseyn Əl-Şeyx, Misir Prezidenti Əbdülfəttah Əl-Sisi, BMT-nin Baş katibi Antonio Quterreş, Ərəb Liqasının Baş katibi Əhməd Abul Qeyt hücumu pisləyib. İran Xarici İşlər Nazirliyinin sözçüsü İsmayıl Bəqayi də İsraili BMT Nizamnaməsini pozmaqda ittiham edib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da İsrailin Dohada HƏMAS nümayəndə heyətinə qarşı həyata keçirdiyi hücuma sərt reaksiya verib. Ərdoğan bəyan edib ki, bu addım əzgin Netanyahu hökumətinin bölgədə qarşıdurmanı və qeyri-sabitliyi dərinləşdirmək niyyətini bir daha göstərib: "Beynəlxalq hüququn və Qətərin suverenliyinin açıq şəkildə pozulması olan bu hücum, qardaş ölkə Qətərin təhlükəsizliyini və əmin-amanlığını hədəf almışdır. Bu hücumu qətiyyətlə lənətləyirəm".

Türkiyə lideri bildirib ki, Ankara həm Fələstin xalqının, həm də strateji tərəfdaşı Qətərin yanında olacaq: "Türkiyə bütün imkanları ilə fələstinli qardaşlarının, müttəfiqi, strateji tərəfdaşı və dostu olan Qətər Dövlətinin yanındadır. Terrorizmi dövlət siyasəti halına gətirənlər heç vaxt məqsədlərinə çata bilməyəcəklər".

Azərbaycan Xarici İşlər Nazirliyi də Qətərin paytaxtı Dohaya edilən hücuma dair açıqlama verib. Qurumun "X" sosial şəbəkəsində yayımlanan bəyanatında bildirilib: "Biz regional gərginliyi daha da gücləndirmək riski ilə Qətərə qarşı bugünkü hücumdan dərin narahatıq. Biz Qətərin suverenliyini və ərazi bütövlüyünü dəstəkləyirik və regionda sabitliyi qorumaq üçün diplomatik səylərə üstünlük verməyə çağırırıq".

*SADİQ*

# Terrorun 11 sentyabr kölgəsi: Dünya necə xilas olacaq...?

## Bəşəriyyətin yaddaşına həkk olan faciə

2001-ci ilin 11 sentyabrı özünün qara dəhşətləri ilə yanaşı bəzi həqiqətləri də təsdiqlədi. Nyu-Yorkda, “Əkiz qüllələr”də baş verən dəhşətli terror aktı təkcə bir neçə min günahsız insanın həyatına son qoymadı, həm də beynəlxalq münasibətlərin bütün sistemini dəyişdirdi. O gün sübut olundu ki, terror artıq lokal problem deyil, bütün bəşəriyyətin ortaq dərdidir.

... Paytaxtdan da böyük şəhərin ən böyük ticarət mərkəzləri yerlə-yeksan olarkən dünya bir həqiqəti qəbul və təsdiq etdi: heç bir dövlət, heç bir xalq bu bəladan sığortalanmayıb. Həmin hadisə göstərdi ki, XXI əsrdə sülh və təhlükəsizlik anlayışı yalnız bir ölkənin deyil, bütün planetin taleyinə bağlı olacaq...

***

11 sentyabr terrorunu bir də rəqəmlərdə yada salaq. Ardarda 4 hücum:

- Yerli vaxtla saat 08:46-da “American Airlines” (Amerika hava yolları) şirkətinə məxsus sərnişin təyyarəsi Nyu-Yorkda yerləşən Dünya Ticarət Mərkəzinin Şimal qülləsinə çırpıldı.

- 09:03 radələrində isə Cənub qülləsi bənzər hücuma məruz qaldı.

- 40 dəqiqə sonra, yəni 09:43-də ABŞ Müdafiə Nazirliyi - Pentaqonun binası da intiharçıların idarə etdikləri təyyarə tərəfindən vuruldu.

- Bu hücumdan 25 dəqiqə keçdikdən sonra eyni məqsədlə qaçırılan bir sərnişin təyyarəsinin hava hücumundan müdafiə qüvvələri tərəfindən vurularaq zərərsizləşdirildiyi açıqlandı. Həmin təyyarənin hədəfinin Ağ Ev olduğu bildirildi...

Hücumlar 2977 nəfərin ölümünə, minlərlə insanın yaralanmasına və uzunmüddətli sağlamlığa əhəmiyyətli təsirlərə səbəb oldu - Hücumlarda ən azı 102 ölkənin vətəndaşı həyatını itirdi. İnfrastruktura və əmlaka ən azı 10 milyard dollar ziyan vuruldu. Müvafiq olaraq 343 yanğınsöndürən və 71 hüquq-mühafizə orqanı əməkdaşı həyatını itirdi...

***

Beləliklə, Nyu-Yorkdakı “Əkiz qüllələr”ə çırpılan təyyarələrin yaratdığı alov, insanların həyatını bir an içində külə döndərməsi 11 sentyabrı bəşəriyyət üçün ən qorxunc tarix kimi yaddaşlara həkk etdi. Bu hadisə bir günün deyil, bütün bir dövrün simvoluna çevrildi: terror insan həyatının, mədəniyyətin, sivilizasiyanın ən böyük düşmənidir. Bu aksioma terrora qarşı mübarizənin qlobal əhəmiyyət daşıdığını təsdiqlədi.

> **Hücumlar 2977 nəfərin ölümünə, minlərlə insanın yaralanmasına və uzunmüddətli sağlamlığa əhəmiyyətli təsirlərə səbəb oldu - Hücumlarda ən azı 102 ölkənin vətəndaşı həyatını itirdi. İnfrastruktura və əmlaka ən azı 10 milyard dollar ziyan vuruldu. Müvafiq olaraq 343 yanğınsöndürən və 71 hüquq-mühafizə orqanı əməkdaşı həyatını itirdi...**

Bu hadisənin dəhşəti həm də insanlığa bəslənən nifrətin, gözlənilməz qəddarlığın fonunda terrorun mahiyyətini ortaya qoyurdu. 11 sentyabr ona qədərki terror hadisələrinin dəhşətini anladırdı, danışırdı və göstərirdi - terrorçunun milliyyəti və dili olmur. Demək ki, 11 sentyabr terorru həm də Xocalı idi, həm də Srebrenitsa idi, həm də digər faciələr, terrorlar idi, bu terrorlara susqunluğun nəticəsi idi...

### Əkiz qüllələrdən başlanan kabus insanlıq üçün dərs oldumu?



Bu faciə hər kəs üçün həm nümunə, həm də dərs idi: heç kim terror təhlükəsindən sığortalanmayıb. İstənilən millət, istənilən şəhər, istənilən insan bu amansız ideologiyanın hədəfinə çevrilə bilər. Necə ki, Nyu-York çevrildi...

***

Terror insan ağlının, bəşəriyyətin qaranlıq tərəfidir, nifrətin silaha çevrilmiş halıdır. 11 sentyabr hadisəsi göstərdi ki, terrorçuların məqsədi təkcə can almaq deyil, həm də insanlığın ruhunu sarsıtmaq, ümidini qırmaqdır. Onlar ölüm vasitəsilə qorxuya hakim olmaq, siyasi iddialarını zorla qəbul etdirmək istəyirlər.

Amma ən ağır məqam odur ki, bu cinayətlərdən ən çox əziyyət çəkən günahsız insanlardır. 11 sentyabrda ölənlər işinə tələsən ofis işçiləri, xidmət personalı, təcili yardıma qaçan xilasedicilər idi. Heç bir günahı olmayan bu insanların həyatını məhv edən terror - bu səbəbdəndir ki, terror insanlığa qarşı yönəlmiş bəşəri cinayət sayılır...

Terror yalnız bir ölkənin problemi deyil. Partlayan bombalar, dağılan şəhərlər, silsilə hücumlar - bunlar hamısı vahid zəncirin həlqələridir. Bu gün Avropada partlayış törədən də, sabah Asiyada insanları atəşə tutan da, Şərqdə və ya Qərbdə qana bulanmış küçələr yaradan da eyni zehniyyətin məhsuludur.

***

Terror insanın həyat haqqını, yaşamaq hüququnu əlindən alır, cəmiyyətin inkişafını ləngidir, dövlətləri, xalqları bir-birinə qarşı qoyur. 11 sentyabr bu həqiqəti ən sərt şəkildə göstərdi: heç bir sərhəd, heç bir qüdrət terroru dayandıra bilmir, əgər insanlıq birgə mübarizə aparmırsa.

Bütün böyük dövlətlər 11 sentyabrdan sonra “terrora qarşı mübarizə” şüarı ilə çıxış etdilər. Lakin sual budur: bu mübarizə nə dərəcədə səmərəli oldu? Silahların kölgəsində aparılan əməliyyatlar, geosiyasi maraqlar naminə yaradılan münaqişələr bəzi hallarda terroru aradan qaldırmadı, əksinə, yeni ocaqlar yaratdı. Bu isə onu göstərir ki, terrorla mübarizə yalnız güclə deyil, həm də ideyalarla, mədəniyyətlə, maariflə aparılmalıdır.

***

Dünya terrordan xilas olacaqmı? Bu suala cavab hələ də açıqdır. Əgər insanlıq birgə dayanmağı, vahid cəbhədə nifrətə yox, humanizmə xidmət etməyi bacarsa - bəli, mümkündür. Əgər dövlətlər maraqlarını önə çəkib insan həyatını ikinci plana atsa - cavab mənfidir.

Unutmaq olmaz ki, hər bir terror aktı təkcə ölənlərin yox, həm də bütün bəşəriyyətin ruhuna vurulan zərbədir. 11 sentyabrın alovu bizi hələ də yandırır, çünki bu hadisə ilə dünya dəyişdi: daha əvvəlki kimi sadə, etibarlı deyil. Amma, eyni zamanda, bu hadisə insanlığa çağırışdır - sülhü, birliyi, qarşılıqlı hörməti qorumaq üçün hər kəs üzərinə məsuliyyət götürməlidir.

11 sentyabr faciəsi göstərdi ki, terror bəşəriyyəti məhv edə biləcək ən böyük təhlükələrdən biridir. O, millətləri, qitələri ayırmır - hər kəsi hədəf alır. Bu gün bəşəriyyətin qarşısında duran əsas vəzifə sülhün dəyərini qorumaq, həyat haqqını müdafiə etməkdir. Dünya yalnız o zaman terrordan xilas ola bilər ki, bütün insanlar “bir nəfəs, bir ruh” kimi həmrəylik göstərsin.

**Əks halda, tarix yeni 11 sentyabrlar səhifələri yazmaqda davam edəcək...**

P.S: 4 il öncə 11 sentyabr haqda yazı hazırlarkən bir faktla rastlaşmışdım: 1954-cü ilin 11 sentyabrı ABŞ-da keçirilən ilk gözəllik müsabiqəsinin keçirildiyi gün idi. 47 il sonra gözəllik terrora məğlub olmuşdu - əkiz qüllələrin fonunda. Bu gün isə terror üzərində qələbə mümkündür - sülhün, əməkdaşlığın, birliyin timsalında...

*Pərviz SADAYOĞLU*

# Himalay ölkəsini kütləvi iğtişaşlar bürüyüb

Asiyanın iki nəhəng ölkəsi - Çin və Hindistan arasında yerləşən Himalay ölkəsi - Nepalı kütləvi iğtişaşlar bürüyüb. Qeyd edək ki, bu ölkədə iki gündür ki, qeyri-sabitlik hökm sürür. İğtişaşlara səbəb hökumətin “Facebook”, “X” və “YouTube” daxil olmaqla 26 sosial media şəbəkəsinin istifadəsinə qadağa qoyması olub. “India Today” agentliyinin məlumatına görə, Nepalın Baş naziri Şarma Oli ölkədə iğtişaşların artması fonunda vəzifəsindən istefa verib. İğtişaşlar zamanı etirazçılar tərəfindən hökumət binaları və bir sıra strateji obyektlər yandırılıb. Toqquşmalar nəticəsində 30-dan şəxsin öldürüldüyü və 300 yaxın şəxsin isə yaralandığı iddia olunur.

## Hansı obyektlər hədəfə alınıb?

“India Today” məlumat verir ki, etirazçılar bir sıra dövlət qurumlarının, o cümlədən parlament, Ali Məhkəmə və prokurorluğun binalarını yandırıblar. Siyasətçilərin və məmurların evlərinə hücumlar edilib. Ölkənin keçmiş baş nazirinin həyat yoldaşı öldürülüb. Nepalın “Khabarhub” xəbər portalının məlumatında isə qeyd olunur ki, etirazçılar ölkənin Bhayrahava ərazisində yerləşən Qautam Budda adına Beynəlxalq Hava Limanına hücum edərək oranı da yandırıblar. Məlumata görə, təxminən 1 000 nümayişçi hava limanının ərazisinə daxil olaraq əmlaka zərər vurub və bir neçə avtomobili yandırıb. Portal, həmçinin bildirib ki, paytaxt Katmandu şəhərinin Koteşvor rayonunda nümayişçilərin hücumu nəticəsində üç polis əməkdaşı həlak olub - iğtişaşçılar əvvəlcə polis məntəqəsinin binasını yandırıblar, sonra isə polisləri oradan küçəyə çıxarıblar. Polislər təslim olub silahlarını yerə qoymalarına baxmayaraq, kütlə üç polisi döyərək onları öldürüb. Sabiq baş nazir Şarma Olinin iqamətgahı da iğtişaşçıların hücumuna məruz qalıb - “Khabarhub” agentliyi məlumat verir ki, Ş.Olinin iqamətgahı yandırılıb və onun həyat yoldaşı Arzu Ranu yanaraq faciəli şəkildə həyatını itirib. Eyni zamanda Katmanduda davam edən kütləvi iğtişaşlar fonunda soyğunçuluq halları da qeydə alınıb.



## Şəhərlərə ordu yerdilib

Nepal Müdafiə Nazirliyi kütləvi iğtişaşların baş verdiyi şəhərlərə digər təhlükəsizlik xidmətləri ilə birgə qoşun yeridib. Ordu bütün vətəndaşları təmkinli olmağa və ölkə daxilində gələcək dağıntıların qarşısını almaq üçün təhlükəsizlik qüvvələri ilə əməkdaşlığa çağırıb. Nepal ordusu Katmandudakı Tribhuvan Beynəlxalq Hava Limanını da nəzarətə götürüb. “Kathmandu Post” qəzeti yazır ki, hava limanının bağlanması səbəbindən yüzlərlə sərnişin Nepaldan uça və ya ölkəyə enə bilməyib. Daha əvvəl Nepal Turizm Şurası və yerli aviaşirkətlər ölkədəki bütün hava limanlarının sentyabrın 11-dək bağlı qalacağını, həmçinin bağlanmanın uzadılması ehtimalının olduğunu açıqlayırlar.

## 1500-dən çox məhbus həbsxanadan qaçıb

Nepalın “Khabarhub” agentliyinin məlumatına görə, ölkədə baş verən iğtişaşlar fonunda ölkənin Lalitpur şəhərindəki Nakhu həbsxanasından 1 500-dən çox məhbus qaçıb. Agentliyin məlumatında qeyd olunur ki, Rastriya Svatantra Partiyasının sədri Rabi Lamiçhane azad edildikdən sonra Lalitpurdakı Nakhu həbsxanasının bütün məhbusları müəssisəni tərk ediblər. Sözügedən həbsxanada 1 500 və 2000 arası məhbusun saxlandığını qeyd edən nəşrin məlumatında, həmçinin bildirilib ki, polis öz postlarını tərk etdiyi üçün məhbuslar qaçmağa müvəffəq olublar.

## Dövlət başçısı çağırış edib

Nepal Prezidenti Ram Çandra Paudel milli birliyə çağırış edib - o, vəziyyətin sülh yolu ilə həlli üçün əməkdaşlığa hazır olduğunu bəyan edib. AFP agentliyi bildirib ki, dövlət başçısı etirazçıları danışıqlara dəvət edib. “Mən hamını, o cümlədən etirazçı vətəndaşları ölkədəki çətin vəziyyətin sülh yolu ilə həlli üçün əməkdaşlığa çağırıram”, - deyə Ram Çandra Paudel bildirib.

## Yoxsulluq içində 30 milyonluq əhalisi olan ölkə

Uzun müddət aparılan demokratik islahatlara baxmayaraq, 30 milyon əhalisi olan Nepal siyasi və iqtisadi cəhətdən qeyri-sabit ölkə hesab olunur. Himalay dağlarının ətəyində yerləşən bu ölkədə səmərəli iqtisadi imkanlar məhduddur və sosial rifah acınacaqlı vəziyyətdədir - bu da milyonlarla nepalının Cənubi Koreya və Malaziyaya, o cümlədən Körfəz ölkələrinə axın etməsinə səbəb olur. Dünya Bankının Nepal ilə bağlı hesabatında qeyd edilir ki, ölkədə gənc əhali arasında işsizlik 20% civarındadır - hər gün 2000-dən çox gənc Körfəz və Cənub-Şərqi Asiya ölkələrinə iş axtarmaq üçün ölkəni tərk edir. Nepalın hökumət rəsmiləri isə korrupsiyada və dövlət vəsaitlərini mənimsəməkdə ittiham olunur.

*Yunis ABDULLAYEV*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Tələbələrin kirayə dərdi...

## Problem necə həll oluna bilər?



Son illərdə xüsusilə paytaxtda kirayə evlərin tapılması və tələbələr üçün əlverişli şəraitin yaradılması ciddi problemə çevrilib. Bakı kimi böyük şəhərdə hər il minlərlə tələbə yeni təhsil ilinə başlayarkən ev tapmaqda çətinlik çəkir. Bu vəziyyət yalnız paytaxtda yaşayan tələbələrin həyatını çətinləşdirmir, eyni zamanda, şəhər əhalisinin sıxlığını artırır və sosial, iqtisadi problemlərə yol açır.

### Təklif və tələb arasında uçurum...

Kirayə ev bazarının vəziyyəti, təklif və tələb arasındakı uçurumdan ciddi şəkildə təsirlənir. Belə ki, tələbələrin çoxu universitetlərin yaxınlığında, şəhərin mərkəzində yerləşən mənzillərdə yaşamaq istəyir. Ancaq şəhərin mərkəzindəki kirayə evlər, xüsusilə gənclər üçün baha olur və bu, onların maddi imkanlarını aşır. Əlavə olaraq, kirayə evlərin qiymətləri getdikcə artır, xüsusən də yeni təhsil ilinin başlaması ilə.

Bundan əlavə, yeni tikilən binaların çoxu kommersiya məqsədli kirayələrə yönəlib, nəticədə tələbələr üçün əlverişli qiymətlərlə ev tapmaq daha da çətinləşir. Qeyri-şəffaf kirayə müqavilələri və ev sahiblərinin tələb etdiyi qeyri-adi şərtlər də məsələnin dərinləşməsinə səbəb olur.

### Tələbələrin qarşılaşdığı çətinliklər

Tələbələr təhsil müddətində bir çox çətinliklərlə üzləşirlər. Əksər hallarda, tələbələr kirayə evlərə dair müqavilə imzalayarkən hüquqi məsələlərdən xəbərsiz olurlar, bu da onların sonradan haqsızlıqla qarşılaşmasına şərait yaradır. Kirayə evlərdə yaşamaq üçün tələb olunan şərtlər və əlavə ödənişlər də onların maddi vəziyyətini daha da çətinləşdirir.

Bununla yanaşı, bəzi tələbələr yalnız ev tapmaqda deyil, həm də evlərini bir yerdən başqa yerə daşımaqda çətinlik çəkirlər. Ev tapılmadan əvvəl, əksər tələbələr gecə saatlarında, ümumiyyətlə, yaxın ərazilərdə olan qəlyanaltı yerlərində və ya dostlarının evlərində qalmaq məcburiyyətində qalırlar. Bu da tələbələrin təhsilinə mənfi təsir göstərir və onların gündəlik həyatını pozur.

### Paytaxtda sıxlıq: şəhər infrastrukturu və sosial təzyiq...

Mövzu barədə “Yeni Azərbaycan”a danışan ekspert İlqar Hüseynli bildirib ki, paytaxtda kirayə evlərə olan tələbin artması yalnız tələbələr üçün deyil, həm də, ümumilikdə, şəhər əhalisi üçün sıxlıq yaradır: “Şəhərdə sıxlıq yalnız fiziki məkanla məhdudlaşmır. Təhsil müəssisələrinin, iş yerlərinin və digər sosial xidmətlərin mərkəzləşməsi çoxsaylı insanın bir arada yaşamasına səbəb olur. Bu vəziyyət həm də infrastruktura əlavə yük olur, nəqliyyat sistemində sıxlıqların yaranmasına, təmiz içməli su, kanalizasiya və digər ictimai xidmətlərin çatışmazlığına yol açır.

Sıxlıq həm də sosial gərginlikləri artırır. Kirayə evlərin qiymətləri artdıqca, ev sahibləri daha yüksək kirayə haqqı tələb edir və tələbələr, ailələr və digər kirayəçilər özlərini təhlükəsiz və əlverişli şəraitdə hiss etmirlər. Bu vəziyyət cəmiyyətdə müxtəlif təbəqələr arasında daha böyük bir uçuruma səbəb ola bilər”.

### Həll yolları...

Ekspert qeyd edib ki, bu problemi həll etmək üçün bir neçə addım atılmalıdır: “Məsələn, kirayə ev bazarı üzərində nəzarət. Kirayə qiymətlərinin tənzimlənməsi və şəffaflığın artırılması, tələbələr üçün daha əlverişli imkanlar yaradacaq. Dövlət kirayə ev sahiblərini ciddi qaydalara tabe etməli və kirayə müqavilələrinin hüquqi baxımdan düzgün qurulmasına nəzarət etməlidir.

Tələbələr üçün dövlət dəstəyinin olmasını da qeyd etməliyik. Universitetlər, tələbələrə daha münasib qiymətlərlə yataqxanalar təqdim etməli və kirayə evlərə olan tələbi azaldacaq həllər üzərində düşünməlidir. Dövlətin və ya yerli icra orqanlarının tələbələrə kirayə evləri tapmaqda kömək edəcək xüsusi platformalar yaratması bu məsələdə önəmli addım ola bilər.

Ən vacib məqamlardan biri isə şəhər planlaması və infrastrukturun təkmilləşdirilməsidir. Şəhərdəki sıxlığı azaltmaq və infrastrukturu gücləndirmək üçün yeni şəhər planlaması nəzərdə tutulmalıdır. Əlavə yaşayış binalarının tikilməsi, şəhər mərkəzindən kənarda yeni təhsil və iş məkanlarının yaradılması bu sıxlığı bir qədər azalda bilər.

Yeni iş imkanları və kənd təsərrüfatının inkişafı: Kənd yerlərində yeni iş imkanları və təhsil müəssisələrinin yaradılması, insanların yalnız paytaxtda deyil, bütün ölkə boyu yaşayış şəraiti tapmalarına kömək edəcəkdir. Bu, həmçinin ölkə üzrə iqtisadi tarazlıq yarada bilər”.

### Gələcək perspektivlər...

İ.Hüseynlinin sözlərinə görə, kirayə ev bazarındakı çətinliklər yalnız tələbələr üçün deyil, bütün şəhər əhalisi üçün ciddi problemə çevrilib: “Tələbələr sosial ədalətsizlik və yüksək qiymətlər arasında özlərinə uyğun ev tapmağa çalışarkən, şəhər sıxlığı və infrastruktur məsələləri hər kəsin həyatını daha da çətinləşdirir. Bu məsələnin həlli həm dövlətin, həm də yerli icmaların birgə səylərini tələb edir. Hökumət şəhər planlaması, təhsil müəssisələri və kirayə bazarını düzgün şəkildə tənzimləyərək, bu çətinliklərin qarşısını ala bilər və gənclərə daha yaxşı təhsil almaq üçün rahat şərait yarada bilər”.

*Yeganə BAYRAMOVA*

# Böyük Britaniyada ilk “superuniversitet” yaradılacaq



Böyük Britaniyada ilk dəfə bütün bir regionu əhatə edən “superuniversitet” yaradılacaq.

AZƏRTAC BBC-yə istinadla xəbər verir ki, bu, Kent və Qrinviç universitetlərinin birləşməsi nəticəsində baş tutacaq. Yeni ali təhsil müəssisəsi London və Cənub-Şərq Universitetlər Qrupu adlandırılacaq və 2026-cı ilin payızında başlayan akademik ildən etibarən vahid rektorluqla fəaliyyət göstərəcək.

İngiltərənin ali təhsil tənzimləyicisi olan Tələbələr üzrə Ofis (OfS) bu addımı alqışlayıb və qeyd edib ki, iqtisadi çətinliklərlə üzləşən digər universitetlər də oxşar variantları nəzərdən keçirə bilərlər. Hazırda İngiltərədəki universitetlərin təxminən 40 faizinin maliyyə kəsiri ilə üzləşdiyi bildirilir.

Böyük Britaniyanın Təhsil Nazirliyi isə açıqlamasında nazirlərin bu kimi innovativ yanaşmaları dəstəklədiyini vurğulayıb. Yeni universitet mövcud kampuslarda fəaliyyətini davam etdirəcək. Artıq Medvey şəhərində hər iki universitetin tələbələri kitabxana da daxil olmaqla bir sıra obyektlərdən birgə istifadə edirlər.

# Okeanın dərinliyində şirin su ehtiyatı tapılıb



Alimlər Atlantik okeanının dərinliklərində yerləşən Nyu-Cersidən Menə qədər ABŞ-ın şərq sahili boyunca uzanan geniş, gizli şirin su qatının olduğu güman edilən sualtı təbii anbar aşkar ediblər.

AZƏRTAC xarici mediaya istinadla xəbər verir ki, bu əlamətdar tapıntı təxminən 50 il əvvəl gözlənilməz bir kəşfin təkrarıdır. Həmin vaxt minerallar və karbohidrogenlər axtaran ABŞ hökumət gəmisi bu ölkənin şimal-şərqində dəniz dibində aparılan qazıntı zamanı şirin suya rast gəlmişdi. Bu ilkin sürprizə əsaslanaraq, qabaqcıl qlobal tədqiqat ekspedisiyası olan “Expedition 501” bu yay Keyp Koddan yola çıxıb. Duzlu suyun altında qazma işləri aparan qrup minlərlə nümunə götürərək burada nəhəng sualtı su anbarının mövcudluğunu təsdiqləyib.

Ekspedisiyanın rəhbəri Brendon Daqan bildirib ki, bu, dünyanın dayaz duzlu sularında mövcud olduğu bilinən bir çox gizli şirin su anbarlarından biridir.

Kolorado Mədən Məktəbinin geofiziki və hidroloqu Daqan əlavə edib: “Biz cəmiyyət üçün daha çox şirin su tapmaq üçün hər cür imkanlardan istifadə etməliyik”.

Tədqiqat qrupları Yer üzündə şirin su axtarılacaq son yerlərdən birini araşdırıb. Onlar bu yeri tapıblar və yaxın aylarda bütün dünyada öz laboratoriyalarında onun təxminən 50 min litrini təhlil edəcəklər. Alimlər onun mənşəyinin sirrini - suyun buzlaqlardan, quruda əlaqəli yeraltı su sistemlərindən və ya hər hansı bir birləşmədən gəldiyini araşdırırlar. Eyni zamanda, tədqiqat qrupu qeyd edir ki, suyun kimə məxsus olduğu, ondan kimin istifadə edəcəyi və təbiətə hədsiz zərər vermədən necə çıxarılacağı da müzakirə olunur. Əgər sonuncu mümkün olarsa, onda suyu kütləvi şəkildə ictimai istifadə məqsədilə sahilə çıxarmaq üçün illər lazım olacaq.

BMT-nin hesablamalarına görə, beş ildən sonra təmiz suya qlobal tələbat tədarükü 40 faiz üstələyəcək. İstiləşmə, iqlim böhranı, dəniz səviyyəsinin yüksəlməsi sahillərdəki şirin su mənbələrini tükəndirir, süni intellekt və bulud hesablamalarını gücləndirən məlumat mərkəzləri isə hədsiz dərəcədə su istehlak edir.

# Azercell-in dəstəyi ilə keçirilən ICPC Dünya Finalı müvəffəqiyyətlə başa çatdı




31 avqust - 5 sentyabr 2025-ci il tarixlərində Azercell-in telekommunikasiya tərəfdaşlığı ilə 49-cu Beynəlxalq Universitetlərarası Proqramlaşdırma Müsabiqəsinin (ICPC) Dünya Finalı keçirilib.

Bakı şəhərində təşkil olunan Dünya Finalı 70 ölkəni təmsil edən  140 universitet komandasını bir araya gətirib. Final mərhələsində iştirakçılar mürəkkəb tapşırıqları həll edərək proqramlaşdırma bacarıqlarını, alqoritmik düşünmə qabiliyyətlərini və komanda işini nümayiş etdiriblər.

Azercell tədbirdən öncə və final mərhələsində ICPC Fondunun təşkilati komandasını fasiləsiz və etibarlı rabitə ilə təmin edərək dayanıqlı və səmərəli telekommunikasiya infrastrukturunun qurulmasına dəstək göstərib. Tədbir çərçivəsində Bakı Konqres Mərkəzində təşkil olunan sərgidə iştirakçılar və qonaqlar beynəlxalq texnologiya şirkətləri ilə yanaşı, Azercell-in də innovativ həlləri ilə tanış olublar.

Müsabiqə “ICPC Foundation” təşkilatçılığı və ADA Universitetinin ev sahibliyi, Azərbaycan Respublikasının Mərkəzi Bankının tərəfdaşlığı, İnovasiya və Rəqəmsal İnkişaf Agentliyi ilə “ICPC Azərbaycan” icmasının birgə əməkdaşlığı, PAŞA Holding-in dəstəyi ilə reallaşıb.

Qeyd edək ki, Azercell gənclərin İT bacarıqlarının artırılmasını və onların peşəkar kadr kimi formalaşmasını dəstəkləməklə informasiya texnologiyaları və proqramlaşdırma sahəsinin inkişafına töhfə verir. Belə ki, 2017-ci ildən etibarən şirkət Elm və Təhsil Nazirliyi və Təhsil İnstitutu ilə əməkdaşlıq çərçivəsində məktəblilərin beynəlxalq fənn olimpiadalarına hazırlıq prosesinə dəstək verir. Bu müddət ərzində Azərbaycanın paytaxt və bölgə məktəblərində təhsil alan şagirdlər müxtəlif proqramlaşdırma müsabiqələrində iştirak edərək 100-dən çox medal qazanıblar.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5006
Sifariş: 1868
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova